QÜVVƏT ELMDƏDİR, ELMƏ DOĞRU!

# AZİMUT

«HƏRBİ BİLİK» JURNALININ ELMİ-NƏZƏRİ AYLIQ BÜLLETENİ №2, 2014

## AZƏRBAYCAN ALİ HƏRBİ MƏKTƏBİNƏ XALQIMIZIN ÜMUMMİLLİ LİDERİ HEYDƏR ƏLİYEVİN ADININ VERİLMƏSİNİN ON İLLİYİ

10



## SİLAHLI QÜVVƏLƏRİN YARADILMASI AZƏRBAYCANIN DÖVLƏT MÜSTƏQİLLİYİNİ VƏ SUVERENLİYİNİ TƏSDİQ EDƏN, ONU NÜMAYİŞ ETDİRƏN AMİLLƏRDƏN BİRİDİR





*Azərbaycan öz oğullarına – təcrübəli hərbi mütəxəssislərə bu gün həmişəkindən daha cox möhtacdır. Elə mütəxəssislərə ki, həmvətənlərini öz arxasınca aparmağa, düşmənin qarşısında igidliklə durmağa, onu pərən-pərən salıb doğma torpaqdan qovmağa qadirdirlər. Milli dəyərlərimizi, milli ənənələrimizi yaxşı bilməyən gənc vətənpərvər ola bilməz. Hər bir gənc vətənpərvər olmalıdır. Vətənpərvərlik böyük bir məfhumdur. Bu, sadəcə orduda xidmət etmək deyil. Vətvnə sadiq olmaq, Vətəni sevmək, torpağa bağlı olmaq – budur vətənpərvərlik.*

*Azərbaycan vətəndaşlarının, xalqın tam əksəriyyəti vətənpərvərlik, Vətəni müdafiə etmək, Vətənə sədaqət əhval-ruhiyyəsi ilə yaşayır və Vətən, torpaq yolunda şəhid olmağa hazırdır. Qəhrəman Azərbaycan əsgəri, müqəddəs Azərbaycan torpağının, müstəqil Azərbaycan Respublikasının müdafiəsi yolunda irəli!*

***Heydər Əliyev***

SİZ MÜSTƏQİL AZƏRBAYCANIN MİLLİ HƏRBİ MƏKTƏBİNİN MƏZUNLARISINIZ!

*HEYDƏR ƏLİYEV*



10

HEYDƏR ƏLİYEV ADINA
AZƏRBAYCAN ALİ HƏRBİ
MƏKTƏBİ




AZƏRBAYCAN RESPUBLİKASINA XİDMƏT EDİRƏM!

***Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyevin Fərmanı ilə Azərbaycan Ali Hərbi Məktəbinə xalqımızın ümummilli lideri, Ulu Öndər, Silahlı Qüvvələrin əbədiyaşar Ali Baş Komandanı Heydər Əliyevin adının verilməsinin 10 illik yubileyinin keçirilməsinin təşkil edilməsi məqsədilə Azərbaycan Respublikası Müdafiə naziri general-polkovnik Zakir Həsənov 3 fevral 2014-cü ildə əmr imzalamışdır.***

# MÜNDƏRİCAT:


Böyük fəxarətə aparan yol . . . . . . . 4

Birinci Azərbaycan Hərbi Məktəbindən Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinədək . . . . . . . . . . . . 9

Estafet etibarlı əllərdədir . . . . . . . . 16

Onlar sərkərdə olacaqlar . . . . . . . . 22

Hərbi təhsil ocağı ulu öndərimizi unutmur və unutmayacaqdır! . . . . . . 31

Hər şey yüksək ixtisaslı kadrların yetişdirilməsi uçun . . . . . . . . . . . . . 34

Hərbi təhsilə qayğı . . . . . . . . . . . 38

Kursantların elmi uğurları . . . . . . . 39

Hərbi əməkdaşlıq . . . . . . . . . . . . 46

Ordu idmanını zirvələrə qaldıraq 49




# BÖYÜK FƏXARƏTƏ APARAN YOL

**"...Heydər Əliyevin adı verilmiş Azərbaycan Ali Hərbi Məktəbi bu adı fərəhlə, şərəflə daşıyacaqdır."**
**İlham ƏLİYEV**

## TARİXİ VƏ UNUDULMAZ XRONOLOJİ ARDICILLIQ BELƏ BAŞLADI

Ümummilli liderimiz Heydər Əliyevin abidəsinin açılışı. Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin mərasimdə iştirakı.

Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin üçüncü buraxılışı münasibətilə təntənəli mərasim.

İyunun 25-də Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyev mərasimdə iştirak etmək üçün məktəbə gəldi.

Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Fəxri qarovul dəstəsinin rəisi Ali Baş Komandana raport verdi.



Mərasimdən əvvəl Azərbaycanın ümummilli lideri, əbədiyaşar Ali Baş Komandan Heydər Əliyevin abidəsinin açılışı oldu.

Dövlətimizin başçısı İlham Əliyev qranitdən hazırlanmış abidənin üzərindəki örtüyü götürdü və onun önünə əklil qoydu.

Azərbaycan Respublikası nın Prezidenti İlham Əliyev abidənin açılışından sonra Heydər Əliyev adına Ali Hərbi Məktəbin üçüncü buraxılışı münasibətilə mərasimin keçirildiyi stadiona gəldi. Mərasimə toplaşanlar dövlətimizin başçısını hərarətli alqışlarla qarşıladılar.

Ali Hərbi Məktəbin rəisi general-mayor Heydər Piriyev Ali Baş Komandana raport verərək, şəxsi heyətin buraxılış mərasimi münasibətilə düzüldüyünü bildirdi.

Azərbaycanın suverenliyi və ərazi bütövlüyü uğrunda canlarını qurban vermiş şəhidlərin və ümummilli liderimiz Heydər Əliyevin əziz xatirəsi bir dəqiqəlik sükutla yad olundu.

Müdafiə Nazirliyinin nümunəvi orkestrinin və kursantların ifasında Azərbaycanın dövlət him-

**"Azərbaycan xalqının ümummilli lideri Heydər Əlirza oğlu Əliyevin xatirəsinin əbədiləşdirilməsi haqqında"**

**AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI**

**...Azərbaycan Ali Hərbi Məktəbinə Heydər Əliyevin adı verilsin.**

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**
**Bakı şəhəri, 10 mart 2004-cü il.**



ni əzəmətlə səsləndi.

Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyev mərasimdə nitq söylədi:

"Xalqımızın ümummilli lideri orduya, ordu quruculuğuna həmişə böyük diqqətlə yanaşmışdır. Üç il bundan əvvəl Azərbaycan Ali Hərbi Məktəbinin ilk buraxılışı olmuşdur.

Biz o günü çox yaxşı xatırlayırıq. Xalqımızın ümummilli lideri Heydər Əliyev o təntənəli mərasimdə iştirak etmiş, öz ürək sözlərini demiş, məzunları təbrik etmişdi. Üç ildən sonra biz bu gün burada xalqımızın ümummilli lideri Heydər Əliyevin abidəsini açdıq. Bu, çox gözəl abidədir və ümid edirəm ki, Heydər Əliyevin adı verilmiş Ali Hərbi Məktəb bu adı fərəhlə, şərəflə daşıyacaqdır.

Onun fəaliyyətinin ən önəmli istiqaməti məhz orduya diqqət göstərmək, ordu quruculuğuna xidmət etməkdən ibarət idi. Xalqın tələbi ilə 11 il bundan əvvəl Azərbaycana rəhbərliyə gəlmiş Heydər Əliyev sonrakı illər ərzində Azərbaycana böyük töhfələr vermişdir. Dövlətimizi gücləndirmiş, Azərbaycanın dövlət müstəqilliyini əbədi, dönməz etmişdir.

Daim xalqa arxalanaraq, Azərbaycanı hərtərəfli inkişaf etdirmişdir. On bir il bundan əvvəl Azərbaycanın iqtisadi, siyasi, sosial vəziyyəti tamamilə başqa idi. Ölkə böhran içində idi, Azərbaycanda çox xoşagəlməz proseslər baş verirdi və ölkənin gələcəyi, müqəddəratı şübhə altında idi. Vətəndaş müharibəsi, qarşıdurma, yaşanan iqtisadi, siyasi, hərbi böhran ölkəmizi çox çətin vəziyyətə salmışdı. Demək olar ki, Azərbaycanın gələcəyi, onun müstəqilliyi böyük təhlükə altında idi. Heydər Əliyevin qətiyyəti, cəsarəti, uzaqgörənliyi, apardığı müdrik siyasət ölkəni bu bəladan qurtardı və Azərbaycan inkişaf etməyə başladı.

Azərbaycanın hər bir sahəsi inkişaf etdi. Bu gün ölkəmiz dünya birliyinin layiqli üzvüdür. Azərbaycan iqtisadi potensialına görə bölgədə liderliyi əldə saxlayır və bunu getdikcə gücləndirir. Ölkədə sosial məsələlər, problemlər öz həllini tapır. Əlbəttə ki, ordu quruculuğunda da böyük uğurlar əldə olunmuşdur.

1993-cü ildə orduda vəziyyət çox çətin idi. Demək olar ki, nizami ordu yox idi, ayrı-ayrı silahlı birləşmələr mövcud idi. Müasir, mütəşəkkil ordunu yaratmaq Heydər Əliyevin Azərbaycan xalqı qarşısında ən böyük xidmətlərindən biri olmuşdur. Bu gün Azərbaycanın güclü



ordusu vardır. Azərbaycan ordusu qarşıda duran bütün vəzifələri həll etməyə qadir bir ordudur. Azərbaycanda ordu quruculuğu prosesi bu gün də çox sürətlə gedir.

Bildiyiniz kimi, Azərbaycanda bütün sahələrdə Heydər Əliyevin siyasəti yaşayır və davam etdirilir. Mən prezident seçkiləri ərəfəsində bu siyasətə sadiq olduğumu bəyan etmişdim.

Seçkilərdən keçən dövr ərzində əməli-praktiki addımlarla, qəbul etdiyim qərarlarla bu siyaətə sadiq olduğumu təsdiq etmişəm. Azərbay - anda bu siyasətə alternativ yoxdur. Yalnız bu iyasət ölkəmizi daha da inkişaf etdirəcək, öl - kəmizi hərtərəfli gücləndirəcəkdir.

Azərbaycan beynəlxalq aləmdə öz yerini möhkəmləndirir, iqtisadi inkişaf baxımından öl - kəmiz böyük uğurlar əldə etmişdir. Azərbay - anda sosial məsələlər öz həllini tapır, nsanların həyat səviyyəsi yüksəlir.

Əlbəttə, ordu quruculuğunda da görülmüş işlər deməyə əsas verir ki, artıq bu istiqamətdə önəmli addımlar atılmışdır. Mən orduda gedən pro - eslərlə mütəmadi olaraq maraqlanıram, əlaqə saxlayıram və bu məsələlər daim diqqət mərkəzindədir. Mən çox şadam ki, Azərbaycanın ordusu güclənir, nkişaf edir. Bu yaxınlarda Naxçıvanda və Gəncədə hərbi hissələrdə olarkən bir daha əmin oldum ki, orduda gedən pro - eslər müsbətdir. Ordunun maddi-tex - niki bazası güclənir, şəxsi heyətin hazırlıq, peşəkarlıq səviyyəsi yüksəlir. Bu istiqamətdə gələcəkdə də addım - lar atılacaqdır. Ordumuzun maddi-texniki bazasının gücləndirilməsi istiqamətində çox önəmli addımlar atılır və bundan sonra da atılacaqdır.

Azərbaycan inkişaf edən bir ölkədir. Heydər Əliyevin siyasəti nəticəsində aparılan iqtisadi islahatlar ölkəmizi iqtisadi cəhətdən gücləndirmişdir. Tə - bii ki, iqtisadi potensialı güclü olan ölkələrin güclü orduları vardır. Mən bunu dəfələrlə bəyan etmişəm ki, kasıb ölkələrdə güclü ordu ola bilməz. Ona görə Azərbaycan zəngin ölkə olmalı - dır. Azərbaycan güclənməlidir. Bunu etmək üçün bütün imkanlar vardır. Xalqın iradəsi var, aparılan siyasətin gözəl nəticələri var və Azər - baycan xalqının dəstəyi vardır.

Azərbaycanda gedən iqtisadi islahatlar, iqtisadi siyasət ölkəmizi daha da gücləndirəcəkdir. On il bundan əvvəl başlanmış Heydər Əliyevin neft strategiyası bu gün özünün gözəl nəticələ - rini verməkdədir. Bu strategiya əsasında görü - lən işlərin, həyata keçirilən irimiqyaslı layihə - lərin hesabına ölkə iqtisadiyyatına böyük həcm - də sərmayə gətirilmişdir. 1993-cü ildə boş olan xəzinə bu gün böyük maliyyə resurslarına ma - likdir. Görülən bütün bu işlər imkan verəcək ki, Azərbaycan gələcəkdə də hərtərəfli inkişaf etsin, öz iqtisadiyyatını şaxələndirsin və ordu quruculuğunda da daha böyük nəticələr əldə



edə bilsin. Bu, bizim məqsədimizdir. Mən şübhə etmirəm ki, biz bu məqsədə nail olacağıq.

Azərbaycanın qarşısında böyük problemlər var. Onların arasında ən böyük problem Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsidir. Qarşımızda duran digər məsələlər öz həllini tapır. Qeyd etdiyim kimi, Azərbaycanın beynəlxalq nüfuzu artır, Azərbaycan beynəlxalq təşkilatlarda çox önəmli yerləri tutur. Dünyada Azərbaycanla hesablaşırlar və apardığımız xarici siyasət bizə imkan verəcək ki, ölkənin milli maraqları daha da böyük həcmdə müdafiə olunsun.



İqtisadi inkişaf istiqamətində aparılan işlər deməyə əsas verir ki, bu problemlər də öz həllini tapacaqdır, Azərbaycan yaxın zamanlarda daha zəngin ölkəyə çevriləcəkdir. Sosial məsələlərin həlli qarşımızda duran ən vacib problemlərdən biridir. Bu istiqamətdə də önəmli addımlar atılır və bundan sonra da atılacaqdır. Əmək haqlarının, pensiyaların, sosial ödənişlərin artırılması istiqamətində işlər görüləcəkdir. Biz çalışmalıyıq və çalışırıq ki, Azərbaycanın hər bir vətəndaşı ildən-ilə daha yaxşı yaşasın, onun güzəranı daha da yaxşılaşsın, qarşısında duran sosial məsələlər öz həllini tapsın. Mən şübhə etmirəm ki, biz bu məsələləri də həll edəcəyik.

Amma Azərbaycanın ən böyük problemi, qeyd etdiyim kimi, torpaqlarımızın işğal altında qalmasıdır. Azərbaycan xalqı heç vaxt bununla barışmayacaq, heç vaxt imkan verməyəcək ki, torpaqlarımız işğal altında qalsın. Bizim işimiz haqq işidir. Azərbaycan heç kimin torpağını zəbt etməyibdir. Heç kimin ərazi bütövlüyünü pozmayıbdır. Əksinə, biz bu təcavüzün qurbanlarıyıq. Azərbaycan xalqı bu təcavüzdən əziyyət çəkir. Bu onu göstərir ki, beynəlxalq hüquq bizim tərəfimizdədir.

Əlbəttə, biz çalışmalıyıq və bütün dünya ictimaiyyəti, bu məsələ ilə bilavasitə məşğul olan qurumlar məhz beynəlxalq hüquq normalarını üstün tutmalıdır. Azərbaycanın tam haqqı var ki, öz torpaqlarını azad etsin. Beynəlxalq hüquq normaları bizə belə bir imkan yaradır. Biz istəyirik ki, bunu sülh yolu ilə həll edək. Amma bilirsiniz ki, sülh danışıqları heç bir nəticə vermir.



Neçə illərdir ki, sülh danışıqları aparılır, ortalıqda da bir nəticə yoxdur. Azərbaycan xalqı bu vəziyyətlə heç vaxt barışa bilməz. Biz tələb edirik ki, bu məsələ tezliklə, ədalətli, Azərbaycanın ərazi bütövlüyü çərçivəsində öz həllini tapsın.

Biz hələ ümid edirik ki, bunu sülh yolu ilə həll edə bilərik. Amma eyni zamanda, hər an torpaqlarımızın azad edilməsi istiqamətində addımlara hazır olmalıyıq. Bunu etmək üçün ordumuz daha da güclü, peşəkar olmalıdır. Ordumuzun maddi-texniki bazası daha da möhkəmlənməlidir. Biz bunu edirik və



Ölkədə bir neçə ay ərzində minlərlə yeni iş yerləri açılıbdır. Büdcədən maliyyələşən təşkilatlarda çalışan in - sanların əmək haqları qaldıırlır. Öl - kəmiz beynəlxalq aləmə daha inamla inteqrasiya edir. Ölkə iqtisadiyyatı bö - yük addımlarla inkişaf edir. Heydər Əliyevin təməlini qoyduğu, onun əsə - ri olan Bakı-Tbilisi-Ceyhan neft kə - məri uğurla inşa edilir. Biz bunun açı - lışını gələn il qeyd edəcəyik. Bir söz - lə, Azərbaycan inamla addımlayır, çox uğurla inkişaf edir. Bunu təkcə biz deyil, bütün dünya ictimaiyyəti bi - lir və qəbul edir.

edə cəyik. Bu gün Azərbaycanın iqtisadi poten- sialı Ermənistandakından üç-dörd dəfə böyük - dür. Ölkədə aparılan iqtisadi islahatlar, iqtisadi siyasət, Heydər Əliyevin neft strategi- yasının həyata keçirilməsi nəticəsində ölkə iqtisadiyyatı Ermənistandakından on dəfə güclü olacaqdır. Bunun nə de - mək olduğunu hamımız yaxşı bilirik.

Siz görürsünüz ki, mənim fəaliyyəti - min əsas istiqamətlərindən biri də or - dunu gücləndirməkdən, onun maddi- texniki bazasını möhkəmləndirməkdən ibarətdir. Biz güclü orduya malikik, amma hər gün, hər an bu istiqamətdə daha da böyük addımlar atmalıyıq. Mən şübhə etmirəm ki, Azərbaycan öz ərazi bütövlüyünü bərpa edəcəkdir. Şübhə etmirəm ki, biz torpaqlarımızı azad edəcəyik. Amma əlbəttə, biz istərdik, bu, sülh yolu ilə həll olunsun.

Qeyd etdiyim kimi, ölkədə sosial siyasət isti - qamətində önəmli addımlar atılır. O cümlədən orduda xidmət edən şəxsi heyətin həyat səviy - yəsinin yaxşılaşdırılması üçün addımlar atılıb - dır. Bu siyasət bundan sonra da davam etdirilə - cəkdir.

Bir sözlə, mən bir daha demək istəyirəm ki, prezident seçkilərindən əvvəl xalqa təqdim et - diyim proqramlar uğurla həyata keçirilir. Azər - baycanın regionları inkişaf edir, qəbul edilmiş sosial-iqtisadi inkişaf proqramı çox uğurla hə - yata keçirilir.

Bu gün, həqiqətən, Azərbaycanın tarixində çox əlamətdar bir gündür. Heydər Əliyev adına Ali Hərbi Məktəb öz məzunlarını buraxır. Mən



üç il bundan əvvəl burada keçirdiyimiz mərasi - mi bir daha xatırlatmaq istəyirəm. Mən xatırla - yıram ki, xalqımızın ümummilli lideri Heydər Əliyev o mərasimə çox sevinirdi. Çox bö yük qürur hissi keçirirdi ki, Azərbaycan ordusunda hazırlıqlı, peşəkar zabitlər xidmət edəcəklər”.

# BİRİNCİ AZƏRBAYCAN HƏRBİ MƏKTƏBİNDƏN HEYDƏR ƏLİYEV ADINA AZƏRBAYCAN ALİ HƏRBİ MƏKTƏBİNƏDƏK

Ordu xalqın nicatı, əmin-amanlığın dayağıdır. Azərbaycanın milli hərbi qüvvələrinin yaradılmasına tarixi zərurət meydana gəldiyi vaxt hələ heç də dövlət müstəqilliyi əldə edilməmişdi. Milli hərbi strukturların təşkil edilməsi fikirlərinin daha əsaslı şəkildə irəli sürülməsi və onların reallaşdırılması 1917-ci ilə təsadüf edir. Milli qoşun hissələrinin yaradılması o dövrlərdə mövcud olan azsaylı milli hərbçilərimiz tərəfindən də müdafiə olunurdu və keçirilən yığıncaqlarda bu fikirlər vurğulanırdı. Beləliklə, ordumuzun yaradılması mərhələlərlə öz yerini tapırdı. Amma başlıca çətinlik zabitlərin yoxluğu idi. 1918-ci ilin fevralında o dövrün ordu məsulları dövlət qurumlarına müraciət edib, milli hərbi məktəbin açılmasına razılıq verilməsini xahiş edirdilər. Həmin il martın əvvəllərində Tiflisdə formalaşan və mart hadisələri səbəbindən Bakıya köçürülməsi mümkün olmayan məktəb Gəncədə yerləşdirilməli olmuşdu. Müxtəlif səbəblərdən fəaliyyət göstərə bilməyən Müsəlman Korpusunun Milli hərbiyyə məktəbi, nəhayət ki, iyun ayının əvvəlində orada oxumaq istəyən azərbaycanlıların üzünə açıldı.

Azərbaycan xalqının başlıca vəzifələrindən biri milli hərbi qüvvələrin yaradılması olmuşdur. Bu məsələnin həlli və reallaşdırılması təkcə Azərbaycan xalqının milli mənafelərinin qorunması zərurəti ilə deyil, bəlkə də yaranmış şəraitdə millətin qorunması zərurəti ilə şərtlənirdi. Türk zabitlərinin yaxından köməyi və iştirakı ilə Azərbaycan Demokratik Cümhuriyyəti ordusunu milli kadrla təmin etmək məqsədilə 1918-ci ilin iyun ayında Gəncədə ilk hərbi məktəb yaradıldı. Ümumilikdə iki ilə yaxın fəaliyyət göstərən ilk hərbi məktəbimiz 4 buraxılış keçirə bilmişdir. 1920-ci il may ayının sonunda Sovet hakimiyyətinin qurulması ilə əlaqədar ilk hərbi məktəb öz fəaliyyətini dayandırmışdır.

1921-ci il oktyabr ayının 7-də Azərbaycan Xalq Komissarları Şurası milli hərbi hissələrin komanda heyəti üçün kadrların yetişdirilməsi məqsədilə Birinci Azərbaycan hərbi məktəbini yaradır ki, həmin məktəb əsas hərbi məktəblərə öz namizədlərini hazırlasın. 1921-ci ildə Azərbaycan hərbi məktəbinin rəsmi açılışı olur.

1922-ci il dekabr ayında isə Zaqafqaziya Sovet Federativ Sosialist Respublikası yaradılır. Digər xalq komissarlıqları kimi, hərbi və dəniz məsələləri üzrə də birləşmiş xalq komissarlığı təşkil olunur və nəhayət, hərbi məktəb Zaqafqaziya





Xüsusi ilə bu çətinliklərin əsası maddi-texniki təminatla əlaqədar idi. Kursantların dərslərinin və müstəqil hazırlığının keçirilməsi üçün sinif və auditoriyalar çatışmırdı. Atəş poliqonu çox primitiv şəkildə quraşdırılmış və atəş hazırlığında çalışmaların yerinə yetirilməsini təmin etmirdi. Bütün bu çətinliklərə baxmayaraq, 1 yanvar 1940-cı ildən məktəb tədris proqramını yerinə yetirməyə başladı. İlk aylarda kursantlar proqram üzrə müxtəlif müddətdə hazırlanırdılar. Hərbi hissələrdən məktəbə daxil olanlar birillik proqramla, hərbi komissarlıqdan gələn mülki gənclər ikiillik proqramla hazırlanırdılar. 1940-cı ilin martından bütün məktəb ikiillik təlim-tədris proqramına keçdi. Atıcı və pulemyotçu taqım komandirləri olmaq üzrə zabit hazırlığı dövri olaraq həyata keçirilməyə başladı.

1941-ci ildən məktəbdə 3 ixtisas üzrə komandir heyəti hazırlanmağa başlandı. Sayca üstünlük atıcı taqım komandirlərinə verilirdi. Minomyotçu taqım komandirlərinin hazırlanması hərbi müəssisə üçün daha bir yenilik oldu.

Burada əsas diqqət hər bir kursantın hərbi texnikan və taktikanı dərindən qavramasına, silahın döyüş şəraitində bacarıqla istifadə edilməsinə yönəldilmişdi. Taktiki dərslər, soyuq qar, isti külək, gecə-gündüz demədən əksəriyyəti təlim

proletar hərbi məktəbi adlandırılaraq Hərbi İnqilabi Şuranın Əlahiddə Qafqaz ordusunun tərkibinə verilir və tamamilə yenidən qurulur.

1924-cü ilin oktyabrında Zaqafqaziya hərbi-hazırlıq məktəbi adlandırılan tədris ocağı fəaliyyətini davam etdirir. Bu məktəbin qarşısında duran əsas vəzifə ondan ibarət idi ki, Zaqafqaziya Piyada Məktəbinə kadrlar hazırlasın. Məktəbin müdavimləri burada orta təhsil almaqla yanaşı, həm də hərbi peşənin sirlərinə yiyələnirdilər. Azərbaycan, gürcü, rus və erməni bölmələrində təhsil müddəti əvvəlki illərə nisbətən azaldılaraq dörd olmuşdu. Kəngərlinin rəhbərlik etdiyi məktəbə daha çox uşaq evlərindən gələn yeniyetmələr daxil olurdular. General Akim Abbasov, iki dəfə Sovet İttifaqı Qəhrəmanı, tank qoşunları qvardiya general-mayoru Həzi Aslanov, Sovet İttifaqı Qəhrəmanı Aslan Vəzirov, Saleh bağırov, Həmid Adıgözəlov, Cavad Əliyev, Qəzənfər Əliyev, Əyyub Əsgərov və digər görkəmli hərbi və ictimai xadimlər bu məktəbin yetirmələridir.

1939-cu ilin noyabr ayında SSRİ Xalq Müdafiə komissarının əmri əsasında Qroznı şəhərində Qroznı Hərbi Piyada Məktəbinin yaradılması qərara alınmışdır. Bugünkü Azərbaycan Ali Hərbi Məktəbinin tarixçəsi də buradan başlamış oldu. Narahat bir dövrdə yaranan məktəb ilk günlərdən böyük çətinliklərlə üzləşmişdir.





Şəraitlə əlaqədar olaraq məktəbin tədris sisteminə yeni hazırlıq proqramı əlavə olundu. Bütün dərslər müharibə dövrünün tələblərinə uyğun olaraq keçirilirdi.

Müharibənin ən ağır dövründə – 13 iyul 1942-ci ildə Sovet rəhbərliyinin əmri əsasında Qroznı Hərbi Piyada Məktəbi Qroznı kursant alayına keçirilərək 2435 nəfər təşkil edən alayın tərkibində, məktəb rəisinin komandanlığı ilə döyüşən orduya, Stalinqrad cəbhəsinə yola salınmışdır. Qroznı kursant alayı Stalinqrad cəbhəsinə göndərildikdən sonra məktəb öz fəaliyyətini dayandırmadı. 1942-ci ilin iyulun 18-də məktəb əvvəlki ştata əsasən yığılaraq, 1 avqust 1942-ciilədək başa çatdırıldı.

Alman ordusunun Qroznı şəhərinə yaxınlaşması ilə əlaqədar olaraq məktəb avqustun axırında Gürcüstana köçürüldü. Orada zabit kadrları hazırlamaq üçün şərait olmadığına görə, 17 oktyabr 1942-ci ildə məktəb Bakı şəhərinə köçürüldü. Burada olan şərait müharibənin tələblərinə uyğun mütəxəssis hazırlanmasına imkan verirdi.

Qroznı Hərbi Piyada Məktəbi, yəni Bakı Piyada Məktəbi cəbhəyə 9000-dən artıq gənc zabit hazırlayaraq yola salmışdır. Bakı Piyada Məktəbinin 28 məzunu alman ordusuna qarşı vuruşmalarda iştirak edib, ən yüksək ada, Sovet İttifaqı Qəhrəmanı adına layiq görülmüşdür.

meydanında döyüş şəraitinə uyğun keçirilirdi.

1941-ci ilin məzunlarından biri həmin günləri belə xatırlayır: "Taktiki dərslər gündəlik 4-5 saat keçirilirdi. Daşqala adlanan dağda hətta ot belə bitmirdi, belə ki, biz sürünməkdən onları yox etmişdik".

Məktəbdə təlim-metodik hazırlığa xüsusi önəm verilirdi ki, gənc komandirlər hərbi hissəyə gəldikdə, şəxsi heyətə döyüş hazırlığını nəzərdə tutulan proqramlar əsasında keçməyi bacarsınlar. Buna görə də tədris prosesinin əsası praktiki dərslərdən ibarət olurdu.

1940-cı il fevralın əvvəlində ilkinlər sıra qarşısında vətənə və xalqa sədaqət andı içdilər. İki il əvəzinə ilyarım oxuyan kursantlar, xüsusən hərbi fənlərdən yüksək qiymət alaraq gənc zabit adı qazandılar.

1941-ci il iyunun 12-də gənc zabitlər təyinatı üzrə xidmət yerlərinə yola düşdülər. On gün sonra isə Böyük Vətən müharibəsi başlandı. Müharibə məktəbin həyatını tamam dəyişdi. Cəbhə çətin şərtlər diktə edirdi. Kollektiv qarşısında çətin və məsuliyyətli tapşırıqlar qoyuldu. Onlar cəbhənin tələbilə ordunu zabit kadrları ilə təmin etməli idilər. Müharibənin üçüncü günü artıq 579 kursant və müəllim cəbhəyə getmək üçün könüllü müraciət etmişdi. Müharibənin başlanmasından dörd ay sonra gənc leytenantların vaxtından əvvəl daha bir buraxılışı oldu. Məzunlar birbaşa döyüşən orduya göndərildilər. Müharibə komandir hazırlığı sistemini kökündən dəyişdirməyə məcbur edirdi.

## SOVET İTTİFAQI QƏHRƏMANI ADI ALMIŞ 28 MƏZUNDAN ÜÇÜ AZƏRBAYCANLI OLMUŞDUR

İki dəfə Sovet İttifaqı Qəhrəmanı, tank qoşunları qvardiya general-mayoru Azərbaycan xalqının əfsanəvi oğlu Həzi Əhəd oğlu Aslanov, Ziya Musa oğlu Bünyadov, Aslan Fərhad oğlu Vəzirov məhz bu qəhrəmanlar arasında olmuşdur.

Bakı Piyada Məktəbinin məzunları həmin döyüşlərdə məktəbin adını həmişə yüksəklərə qaldırmışlar. Müharibədən sonrakı dövr dərin siyasi-hərbi və texniki biliyə, yüksək mədəniyyətə malik zabit kadrlarının hazırlanmasını tələb edirdi.



**İki dəfə Sovet İttifaqı Qəhrəmanı general-mayor Həzi Aslanov**



**Sovet İttifaqı Qəhrəmanı Aslan Vəzirov**



**Sovet İttifaqı Qəhrəmanı Ziya Bünyadov**

Artıq 1945-ci ilin aprel ayında Bakı Piyada Məktəbində yeni ştat strukturu quruldu. Şəxsi heyətin sayı beş dəfə azaldıldı.

Zabit kadrlarının hərtərəfli hazırlanması üçün 1946-cı ilin iyul ayından üçillik proqramla hazırlığa başlayan təhsil ocağı 1947-ci ilin oktyabr ayında özünün müharibədən sonra ilk üçillik proqramla hazırlanmış kursantlarının buraxılışını keçirdi.

Bakı Piyada Məktəbinin orduda azərbaycanlı zabit kadrların artmasında böyük rolu olmuşdur. 1952-ci ilin buraxılış günü məktəbin tarixində ən əlamətdar günlərdən biri olmuşdur. Lakin buraxılan kadrlarının yalnız 34%-ni azərbaycanlılar təşkil etmişdir. Bu vaxtdan etibarən azərbaycanlıların məktəbə qəbulu artmışdır.

1958-ci ilin ortalarında SSRİ Nazirlər Sovetinin qərarına əsasən hərbi məktəblər orta təhsil sistemindən ali təhsil sisteminə keçdilər. Həmin vaxtdan məktəbin adı dəyişdirilərək Bakı Ali Ümumqoşun Komandanlıq Məktəbi adlandırıldı. 1 sentyabr 1958-ci ildə məktəb yeni tədris ilinə böyük təntənə ilə başladı. 28 noyabr 1966-cı ildə əldə etdiyi yüksək nailiyyətlərə görə məktəbə Azərbaycan SSRİ Ali Sovetinin adı verildi.

1973-cü ilin 7 apreli məktəbin həyatında ən yadda qalan gün olmuşdur. Həmin gün məktəbi Azərbaycan KP MK-nın birinci katibi Heydər Əliyev ziyarət etmişdir. Bəli, ordumuzun əbədiyaşar komandanı mütəmadi olaraq məktəbin fəaliyyəti ilə maraqlanır və buraxılış günlərində məzunlarla bir yerdə olurdu.

Azərbaycanın böyük oğlu general Heydər Əliyev elə həmin dövrdən də milli zabit kadrlarının ərsəyə gəlməsinə diqqətin ayrılması ənənəsini həyata keçirməyə başlamışdır.

Məktəbin tarixində ən yadda qalan günlərdən biri də, iki dəfə Sovet İttifaqı Qəhrəmanı, tank qoşunları generalı Həzi Aslanovun adının SSRİ Müdafiə nazirinin əmrilə 1975-ci ildə həmişəlik məktəbin 1-ci bölüyünün şəxsi heyətinin siyahısına salınması olmuşdur. Həmin ənənə bu gün də yaşayır.



Sovet İttifaqı adlanan imperiyanın çökməsilə ölkəmiz azadlığını əldə etdi. Azərbaycan xalqının milli özünüdərketməsi ilə böyük bir milli azadlıq hərəkatı başlandı. Bunu görən qəddar imperiya tərəfdarları xalqımızı min bir bəlalara düçar etmək üçün planlar hazırlayıb həyata keçirməyə başladılar.

Xain qonşular onların işinə yaradı. Əlbuyruğu olanlar siyasi alətə çevrildilər. Havadarlarının köməyi ilə 1988-ci ildə ermənilər uydurma "Böyük Ermənistan" planını yenidən ortaya ataraq, Azərbaycan xalqına qarşı soyqırım siyasətini tam şəkildə həyata keçirməyə başladılar.

Keçmiş SSRİ rəhbərliyinin, xüsusilə SSRİ-nin prezidenti Mixayıl Qorbaçovun dəstəyi ilə erməni quldurları bir-birinin ardınca dəhşətli hadisələr törətməyə başladılar.

17 noyabr 1988-ci ildə xalqımız ayağa qalxdı, baş verən haqsızlığa öz etirazını bildirdi.

Həmin gündən etibarən Azərbaycan müstəqillik yolunda yeni bir tarix yazdı. 18 gün fasiləsiz davam edən mitinq sovet imperiyasının sütunlarını sarsıtdı və müstəqilliyimizin təməl daşını qoydu. Sovet imperiyasının azadlığımızı beşikdə boğmaq istəyi ilə Azərbaycan xalqına qarşı törətdiyi 20 yanvar faciəsi xalqı öz yolundan döndərə bilmədi.

Respublikamızın öz suverenliyini əldə etməsi Ermənistanın aramsız təcavüzü ilə bir vaxta təsadüf etmişdir.

Müstəqil dövlətin atributlarından biri olan Silahlı Qüvvələrimizin yaradılması və formalaşması mürəkkəb bir şəraitə təsadüf edirdi. Lakin Azərbaycan ordusu qısa bir müddətdə formalaşdı və düşmənlə döyüşlərə atıldı.

Azərbaycan xalqı öz müstəqilliyini qazandıqdan sonra yeni yaranmış Silahlı Qüvvələrin ilk zabit və əsgərləri 1991-ci il dekabrın 8-də Şəhidlər Xiyabanında əbədiləşmiş yurddaşlarımızın məzarları önündə and içib onların başladıqları işə, vətənə, torpağa sadiq qalacaqlarına, nəyin bahasına olursa-olsun düşmənə aman verməyəcəklərinə söz verdilər.

Bakı Ali Hərbi Məktəbinin əsasında yaranan milli hərbi məktəbimiz, xalqımızın azadlıq və müstəqillik uğrunda mübarizəsinin məntiqi nəticəsinin bəhrəsi kimi elə ilk günlərdən dövlətimi-





fərdən ibarət bölük yaradılmış, döyüş tapşırığını yerinə yetirmək üçün Ağdərə bölgəsinə göndərilmişdir. Döyüş tapşırığını yerinə yetirərkən 8 nəfər həlak olmuş, 5 nəfər isə itkin düşmüşdür.

Məktəbin məzunu olan yüzlərlə gənc zabit öz hərbi andına sadiq qalaraq torpaqlarımızın ərazi bütövlüyü uğrunda gedən döyüşlərdə rəşadət və igidlik göstərmiş, onlarla məzun vətən naminə öz canlarını fəda etmiş və qəhrəmanlıq zirvəsinə ucalmışlar. Vətənimizin bütövlüyü, dövlətçiliyimizin qorunması naminə həyatını təhlükəyə atan məktəb məzunlarından yüksək dövlət mükafatına və təltiflərə layiq bilinənlər az deyil.

***Onlardan, Azərbaycanın Milli Qəhrəmanı adına layiq görülmüşlərdən bəzilərinin adını qeyd edə bilərik:***

**Polkovnik Cəbrayılov Fəxrəddin Mövsüm oğlu**

**Polkovnik Ağayev Eldar Əsgər oğlu**

zin müdafiə və təhlükəsizlik fəaliyyətinə xidmət etmişdir.

1992-ci ilin aprel ayından məktəb Azəraycan Respublikasının hüquqi tabeliyinə keçirilmişdir. Motoatıcı ixtisas olmaqla on üç peşə üzrə zabitlər hazırlamağa başlayan, elə yaranan vaxtdan yeniləşən Bakı Ali Birləşmiş Komandanlıq Məktəbinin kursantları Qarabağ müharibəsində, müstəqil Azərbaycanın bütövlüyünün və suverenliyinin qorunmasında fəal iştirak etmişlər.

1992-ci ilin dekabrında ümumqoşun fakültəsinin birinci kursunun şəxsi heyətindən ibarət tabor yaranmış və döyüş tapşırığını yerinə yetirmək üçün Ağdam bölgəsinə göndərilmişdir.

Gənc kursant taboru vətənpərvərlik və cəsurluq nümunələri göstərərək itkisiz döyüş tapşırığını yerinə yetirmişdir.

1993-cü ilin fevralında ümumqoşun fakültəsinin ikinci kursundan 72 nə-





**"HƏRBİ XİDMƏTLƏRƏ GÖRƏ" medalı ilə təltif olunanlardan:**

**Məmmədov Akif Gülağa oğlu**
**Məmmədov Mehman Hüseyn oğlu**

2001-ci ildə Azərbaycan Respublikasının Prezidenti Heydər Əlirza oğlu Əliyevin fərmanı ilə məktəb Azərbaycan Ali Hərbi Məktəbi adlandırılmışdır.

Azərbaycan Ali Hərbi Məktəbinin məzunlarının dövlətimizin ərazi bütövlüyünün və suverenliyinin qorunması uğrunda göstərdikləri qəhrəmanlıqlar yeni hərb tariximizdə özünəməxsus yer tutmuşdur. Onların göstərdikləri igidlik və rəşadət bugünkü kursantlarımız üçün örnəkdir.



**Polkovnik-leytenant Şikarov Şikar Şükür oğlu** (ölümündən sonra)
**Mayor İbrahimov Rasim Səxavət oğlu** (ölümündən sonra)
**Mayor Hüseynov Əfqan Qaraxan oğlu** (ölümündən sonra)
**Kursant Kərimov Kərim Məhəmməd oğlu** (ölümündən sonra)
**Kursant Mənsurov Bəhruz Qəhrəman oğlu** (ölümündən sonra)
**Kursant Əliyev Əsgər Ələkbər oğlu** (ölümündən sonra)

***Məktəbin orden və medalla təltif olunmuş məzunları ölkəmizin ictimai həyatında, ordumuzun qurulmasında, dövlətimizin güclənməsində fəal iştirakı ilə seçilənlərdəndir.***

**"AZƏRBAYCAN BAYRAĞI" ordeni ilə təltif olunanlardan:**

**Osmanov Vahid Osmanhacı oğlu**
**Bayramov Nizami Kamran oğlu**
**Hüseynov Cabbar Həmzə oğlu**
**Əliyev Çingiz Cavan oğlu**
**Əliyev Emin İmran oğlu**

# ESTAFET ETİBARLI ƏLLƏRDƏDİR

## ÜMUMMİLLİ LİDERİN MƏKTƏBƏ QAYĞISI BİTMƏZ, TÜKƏNMƏZ OLMUŞDUR



Azərbaycan prezidenti, Ali Baş Komandan Heydər Əliyev məzunlarla yeni bir görüşə gəlmişdir:

– Bu gün müstəqil Azərbaycanın həyatında tarixi hadisə baş verir. Azərbaycanın ordu quruculuğunda yeni bir mərhələ başlayır. Azərbaycan Ali Hərbi Məktəbi son illər təkmilləşərək, inkişaf edərək, nəhayət, özünün ilk məzunlarını buraxır. Azərbaycan Silahlı Qüvvələri, Azərbaycan ordusu böyük gənc zabiti korpusu ilə tamamlanır. Bunlar hamısı son on il içərisində Azərbaycanın müstəqilliyi naminə, dövlətçiliyi naminə, Azərbaycanın müdafiə imkanlarının qüvvətlənməsi naminə görülən görkəmli işlərdən biridir.

Ordu quruculuğu asan iş deyildir. Müstəqillik əldə etmiş hər bir ölkə, azadlığa çıxmış hər bir xalq öz dövlətinin bütün təsisatlarını yaradır. Məlumdur ki, ötən illərdə müstəqil Azərbaycan bütün bu təsisatları yaradıbdır. Müstəqil, hüquqi-demokratik, dünyəvi dövlət kimi Azərbaycan artıq öz hakimiyyət orqanlarını yaradıb, onlar səmərəli fəaliyyət göstərir və Azərbaycanın müstəqilliyinin inkişaf etməsi üçün, dövlətçiliyinin möhkəmlənməsi üçün üzərinə düşən vəzifələri yerinə yetirirlər.

Bu sırada görülən bütün işlərdən ordu quruculuğu ən çətin, ən mürəkkəb bir sahədir. Əgər nəzərə alsaq ki, Azərbaycan on il bundan öncə dövlət müstəqilliyini əldə edəndə Ermənistan silahlı qüvvələrinin təcavüzünün qarşısını almaq üçün müha-





yən qədər əsas yaratmışdır. Ancaq milli Silahlı Qüvvələrin, Milli Ordunun, gərək, milli Ali Hərbi Məktəbi də olaydı. Biz bu işə başladıq, bu işi təşkil etdik. İndi onun gözəl bəhrələrinin şahidiyik.

Böyük məmnuniyyət hissi ilə qeyd etmək istəyirəm ki, Türkiyə Cümhuriyyəti ilə Azərbaycan arasında yaranmış əməkdaşlıq bizim bu işdə nailiyyətlərimizin əsasını təşkil edir. Çünki keçmiş zamanlarda bizim zabitlərin aldığı hərbi təhsil indi müstəqil Azərbaycanın həyatı üçün, müasir dövr üçün heç də yetərli deyildir. Ona görə də, yeni hərbi məktəb yaratmaq lazım idi. Bu məktəbdə tələbələrin təhsil alması üçün lazımi şərait yaratmaq lazım idi. Ən əsası da, yüksək səviyyəli hərbi biliyə malik olan müəllim heyəti yaratmaq lazım idi. Bunların hamısının həyata keçirilməsində Türkiyə Cümhuriyyətinin Silahlı Qüvvələri Azərbaycana böyük yardım etmişdir. Bizim müştərək işimizin nəticəsində, səmərəli əməkdaşlığımızın nəticəsində artıq indi Azərbaycanda Ali Hərbi Məktəb mövcuddur və bu gün o ilk, birinci məzunlarını buraxır.

ribə edirdi və onun mütəşəkkil hərbi hissələri, ordusu yox idi, onda, təsəvvür etmək olar ki, bu illərdə Azərbaycanda ordu quruculuğu sahəsində nə qədər böyük, ağır və çətin yol keçmişik.

Təəssüflər olsun ki, Azərbaycan keçmiş əsrlərdə müstəqil olmadığı kimi, özünün müstəqil ordusu da olmayıbdır. Yəni, ordusu, silahlı qüvvələri olmayıbdır. Əgər, Azərbaycan müstəqillik əldə edəndə bütün başqa peşələrdə böyük kadr potensialına malik idisə, ordu sahəsində Azərbaycan bundan məhrum idi. Ona görə ordu qurmaq, yaratmaq hər bir əsgərə hərbi peşəni anlatmaq və nizami ordu yaratmaq üçün zabit kadrları hazırlamaq bunlar böyük iradə, böyük səylər tələb edirdi. Amma indi bütün Azərbaycan xalqı fəxr edə bilər ki, artıq biz bu sahədə də məqsədlərimizə nail olmaqdayıq.

Azərbaycanda müstəqil Azərbaycan dövlətinin hərbi məktəbinin yaranması çətin bir proses idi. Doğrudur, bizim keçmişdə Sovet ordusunda xidmət edən müəyyən zabitlərimiz var idi. Bizim 70-ci illərin əvvəllərində yaratdığımız Naxçıvanski adına hərbi liseyimiz var idi. Bunlar hamısı hərbi kadrların hazırlanmasında müəy-





etməyə hazırsınız. Sizin qarşınızda çox böyük vəzifə lər durur.

Siz bu illər aldığınız təhsili, qazandığınız təcrübəni gə - rək, Azərbaycanın xidmət edəycəiniz hərbi hissələrində səmərəli istifadə edəsiniz. Birincisi, siz gərək öz xidmətinizlə sübut edəsiniz ki, dörd il müddətində aldığınızı təhsil həqiqətən, Azər - baycan ordusunun peşəkarlığını, səviyyəsini qaldırmağa xidmət edəcəkdir. İkincisi, gərək hər bir hərbi hissədə əsgərlər üçün, zabitlər üçün nümunə olasınız.

Siz müstəqil Azərbaycanın milli hərbi mək - təbinin məzunlarısınız.

Bu çox şərəfli addır. Bu şərəfli adı siz axıra qədər şərəflə daşımalısınız. Bu da sizin üçün çətin deyildir. Çünki bir halda ki, Azərbaycan ordusunda xidmət etmək, zabit olmaq, Azər - baycanın müstəqilliyinin, dövlətçiliyinin, Azər - baycan torpaqlarının keşiyində durmaq peşəsini şüurlu olaraq özünüz seçmisiniz, demək, siz bu peşəni sevirsiniz. Hərbi hissələrdə, gərək, əməli fəaliyyətinizdə bunları sübut edəsiniz, nümayiş etdirəsiniz və əsgərlər sizdən nümunə götürməlidirlər. Ümidvaram ki, bu, belə də olacaqdır.

Bir neçə yüz gənc zabit burada dörd il təhsil alandan hərbi bilikləri, müasir hərbi təcrübəni mənimsəyəndən sonra Azərbaycan Silahlı Qüv - vələrinin hissələrinə xidmətə gedəcəkdir. Bu bizim ordumuzun, silahlı qüvvələrimizin komandan heyətinin keyfiyyətcə yüksəlməsinə çox kömək edəcəkdir. Çünki bu gün Ali Hərbi Məktəbin məzunları artıq yeni dərs proqramı, yeni hərbi nailiyyətlərin təcrübəsi, Türkiyə Cümhuriyyəti Silahlı Qüvvələrinin böyük təcrübəsi əsasında təhsil alıblar. Bu gün bu mərasimi daha da gözəlləşdirən “Türk ulduzları”nın ikinci gündür ki, Azərbaycanın, Bakının səmasında qəhrəmancasına uçuşları oldu. Biz dünən də, bu gün də Türkiyənin nə qədər qüdrətli, peşəkar, nə qədər inkişaf etmiş Silahlı Qüvvələrinin mövcud olduğunun şahidiyik..

Əziz gənc zabitlər!

Siz xoşbəxt adamlarsınız, xoşbəxt gənclərsiniz. Ona görə ki, bu məktəbdə dörd il təhsil almısınız. Hərbi peşəni mənimsəmisiniz və şüurlu olaraq özünüzü bu şərəfli işə, hərbi peşəyə həsr etmək niyyəti ilə ya - şayırsınız və Azərbaycan ordusunda şərəflə xidmət





pərvərlik hissi ilə yaşayaraq, özünüzü qəhrəman, cəsur, qüd - rətli bir insan kimi formalaşdı - rılmalısınız və qarşıdan gələ bi - ləcək bütün çətinliklərə hazır olmalısınız.

Ermənistan silahlı qüvvələri vaxtilə Azərbaycan ərazisinin bir qismini işğal edibdir. Azər - baycanın ərazi bütövlüyü pozu - lubdur. İşğal olumuş torpaqlar-dan bir milyon Azərbaycan və - təndaşı, bizim soydaşlarımız di-dərgin düşüblər, ağır şəraitdə yaşayırlar və Azərbaycan döv - lətinin ən ümdə vəzifəsi Azər - baycanın ərazi bütövlüyünü bərpa etmək, yerindən-yurdundan didərgin düş - müş soydaşlarımızı öz elinə-obasına qaytarmaq və onlara gələcək yaşayış üçün şərait yarat-maqdır.

Biz bunun üçün məsələlərin sülh yolu ilə həll olunmasına çalışırıq və bundan sonra da çalışa-cağıq. Dünya təcrübəsi, müasir həyatda gedən proseslər onu göstərir ki, bu cür münaqişələr sülh yolu ilə həll olunmalıdır. Nə qədər çətin də olsa, sülh yolu ilə həll edilməlidir. Biz bu çətinliklərin öhdəsindən gələrək bu yol ilə ge-dirik və gedəcəyik. Ancaq eyni zamanda Azər - baycan ordusu, Azərbaycan əsgəri bilməlidir ki, ölkəmizin ərazi bütövlüyü nəyin bahasına

Azərbaycan əsgərinin birinci vəzifəsi xalqına, torpağına, millətinə sədaqətlə xidmət etməkdir. Hər il gənclər Azərbaycan ordusunda xidmət etmək üçün səfərbər olunurlar. Onlar bir il, il yarım ordu sıralarında xidmət göstərib tərxis olunurlar. Siz gərək hərbi hissələrdə tabeliyi-nizdə olan əsgərlərə az müddətdə hərbi peşəni öyrədəsiniz, həqiqi döyüşçü olmaq qabiliyyəti-ni onlara öyrədəsiniz. Beləliklə də, Azərbayca-nın hərbi potensialını daha da gücləndirəsiniz.

Azərbaycan əsgəri gərək, hər şeydə türk əs - gərinə bənzəməyə çalışsın. Çünki biz artıq bu - nun canlı şahidiyik ki, Türkiyə Cümhuriyyəti-nin ağır şəraitdə yaşayaraq inkişaf etməsində və ona qarşı olan təxribatların qar-şısının alınmasında, vaxtilə, 20- ci illərdə Türkiyə Cümhuriyyətinin yaranmasına mane olan qüvvələrin qarşısının alınmasında türk əsgəri böyük qəhrəmanlıq, şücaət, vətən - pərvərlik nümunələri göstəribdir... Bu, hər bir ölkənin əsgərinin bor - cudur.

Dünyada, dünya ölkələrində bu sahədə böyük nümunələr də var... Siz də Azərbaycan xalqına xidmət edərək, müstəqil Azərbaycan döv - lətinə xidmət edərək, müstəqil Azərbaycan torpağının keşiyində duraraq, xalqınızı sevərək, vətən-








olursa olsun, bərpa edilməlidir, işğal edilmiş torpaqlar azad olunmalıdır. Bu, Azərbaycan dövlətinin üzərinə düşən vəzifədir və bunun icraçıları Azərbaycan Silahlı Qüvvələridir, Azərbaycan ordusudur, Azərbaycan əsgərdir. Siz hər an, hər dəqiqə Azərbaycan dövlətinin bu qərarını, üzərinizə düşən bu vəzifəni yerinə yetirməyə hazır olmalısınız.

Azərbaycan sülhsevər dövlətdir. Bizim onillik müstəqillik dövrümüz çox çətin və ağır yollardan keçibdir. Həm daxili qüvvələrin, həm xarici qüvvələrin bizim müstəqilliyimizi pozmaq cəhdləri dəfələrlə özünü göstəribdir. Ancaq xalqımız bunlara sinə gərib və müstəqilliyimizi yaşadır. Bu ilin sonunda biz müstəqilliyimizin onuncu ildönümünü bayram edəcəyik. Ancaq bizim xarici siyasətimizdə, həm qonşularımızla, həm də bütün dövlətlərlə münasibətlərimizdə əsas prinsip sülhsevərlik, qarşılıqlı faydalı əməkdaşlıqdır. Biz heç bir ölkə ilə müharibə etmək fikrində deyilik. Biz heç bir ölkənin torpağına göz dikməmişik.

Ancaq eyni zamanda sülhsevər dövlət olaraq biz sülhsevər siyasətimizi təmin etmək üçün güclü orduya malik olmalıyıq. Çünki, əgər, kimsə bu sülhü pozarsa, demək, onun qarşısını ancaq ordu ilə, güc ilə almaq olar. Ona görə də Azərbaycan Silahlı Qüvvələri bizim xalqımızın ən mötəbər hissəsidir. Azərbaycan Silahlı Qüvvələrində xidmət edən şəxslər gərək anlasınlar ki, onlar Azərbaycan ordusunun bütün tələblərinə uyğun xidmət etməlidirlər və yaşamalıdırlar. Əgər buna qadir deyillərsə, bu xidmətdən uzaqlaşmalıdırlar. Kiminsə Azərbaycan ordusunda xidmət etməsi özünün şəxsi mənafelərini təmin etmək məqsədi daşıyırsa, belələrini aşkar etmək, uzaqlaşdırmaq lazımdır.

Azərbaycan əsgəri, Azərbaycan zabiti gərək yüksək mənəviyyata malik olsun.

Azərbaycan xalqının yüksək mənəvi dəyərləri ilə yaşasın. Vətənpərvərliyi, Vətəni sevməyi, Vətən yolunda şəhid olmağı daim gözünün önündə saxlasın.

Azərbaycan xalqı Ermənistan silahlı qüvvələrinin qarşısını almaq məqsədi ilə aparılan döyüşlərdə çox şəhidlər veribdir. Şəhidlərin xatirəsi bizim üçün həmişə əzizdir. Eyni zamanda onların şəhidliyi, qəhrəmanlığı hər bir Azərbaycan gənci, hər bir Azərbaycan vətəndaşı, hər bir Azərbaycan əsgəri üçün nümunə olmalıdır.



üçün həm də Ali hərbi Məktəb üçün bundan sonra da lazımi şə - raitlərin yaranması üçün tədbirlər görəcəyik. Ancaq siz isə bizim yaratdığımız şəraitdən, imkanlardan gərək, səmərəli istifadə edəsiniz.

Bu, böyük bir bayrama çevrilibdir. Eyni zamanda bu, gələcək üçün yaxşı bir ənənənin əsasını qoyubdur. Biz bu ənənəni davam etdirməliyik. Bunun üçün yenə də Türkiyə-Azərbaycan əlaqələrinin möhkəmlən-



Güman edirəm ki, indi bizim ordumuzda bu sahədə vəziyyət xeyli dəyişibdir. Ancaq hələ nöqsanlar, çatışmazlıqlar da var. Onları aradan qaldırmaq lazımdır. Bunun üçün də bizim ordumuzda xidmət edən zabit heyəti generallar, zabitlər birinci növbədə özlərinə qarşı tələbkar olmalıdırlar. Özləri yüksək mənəviyyat, yüksək vətənpərvərlik, yüksək qəhrəmanlıq nümunələri göstərməlidirlər. Bu nümunələr əsasında da əsgərləri, bütün ordumuzu tərbiyə etməlidirlər, hazırlamalıdırlar.

Mən əminəm ki, siz, gənc zabitlər, Ali Hərbi Məktəbin məzunları məhz bu yol ilə gedəcəksiniz, məhz bu keyfiyyətləri daşıyacaqsınız, məhz Azərbaycan xalqına sədaqətlə xidmət etmək, vətənpərvərlik hissiyatları ilə yaşayacaqsınız və xidmətinizi göstərəcəksiniz. Azərbaycan dövləti isə həmişə hər bir Azərbaycan əsgərinin, bütövlükdə Azərbaycan Silahlı Qüvvələrinin xidmətini qiymətləndirməyə qadirdir, qiymətləndirir və bundan sonra da qiymətləndirəcəkdir. Biz həm bütün Silahlı Qüvvələr

məsinə və inkişaf etməsinə hərə öz payını verməlidir.

Mən bir daha Ali Hərbi Məktəbin məzunlarını ali hərbi təhsil alıb ordu sıralarında xidmətə getməsi münasibətilə təbrik edirəm, sizə bu şərəfli işinizdə uğurlar arzulayıram. Azərbaycan ordusuna, Azərbaycan əsgərinə qəhrəmanlıq, cəsurluq, vətənpərvərlik və bütün işlərində, bütün xidmətlərində uğurlar arzulayıram.

***Yaşasın qəhrəman Azərbaycan əsgəri!***

# ONLAR SƏRKƏRDƏ OLACAQLAR



***Yeniyetmə bir gənc. Gözü qorxmaz, ürəyi təpərli, bir az ötkəm, bir az sevdalı. Onu həyata bağlayan çox şey var. Arzular, istəklər, bəzən də yetərincə xəyalpərəstlik. Böyük adam, bəlkə də sərkərdə, yaxud da qəhrəman olmağı şans da hesab edir, bacarıqla da bağlayır. Ancaq onun etibar etdiyi həqiqət – təhsildir. Amma burada da fərqli seçim var. O, hərbi təhsili seçib.***

Bu gənc Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin kursantıdır. Onu təhsil zirvəsinə aparan cığırlar haçalanır: elmli gənc, hünərvər Vətən keşikçisi. Vətən keşikçisi olmaqdan şərəfli nə iş var ki? Bir çox rahatlıqları gözardı edib belə yol seçmək necə də təqdirəlayiqdir. Amma burada daha bir nüans var. Gərək biz razılaşaq ki, ideallarla yaşamaq, özü üçün ideal seçmək də hər bir gəncə xas olan xüsusiyyətdir. İdeal ola biləcək insanlar xalqları bəlalardan qurtarır, tarix yazır, insanların həyatında silinməz izlər qoyub gedir, lakin yenə də onun işləri davam edir, bir ideal kimi nəsillərin gələcək yoluna işıq olur. Onlar üçün ideal nümunəsi olaraq, gələcək arzulara aparan yolda, əxlaqlı vətəndaş olmaq səfində ziya olur. Burada oxuyan hər bir kursant anlayır ki, onlar ən böyük azərbaycanlının adını daşıyan məktəbdə oxuyur. Bəs, bu böyük dühanın təkcə general kimi keçdiyi yol onlar üçün əzmkarlıq, vətənpərvərlik, milli mənsubiyyətinə hörmət örnəyi olmalı deyildirmi? Bəli, onlar bu yolu seçdilər – Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində oxumaq, öndərin millət yolunda gəncliyin üzərinə qoyduğu vəzifələri yerinə yetirmək, gələcəyə onun inamını aparmaq.

Fəxri diplomlu, əlaçı Şahin Bəşirov, taborda nümunəviliyi, biliyi ilə seçilən





tabor üçüncüsü Rəvan Mustafayev, təhsil ocağı üzrə sıralamada 2-ci olan Kamran Almədətov da bu ülvi hissləri yüksəklərə qaldıran, amala çevirən hər bir azərbaycanlı gəncin tərəf-müqabilidir. Gələcəyin zabit namizədləri Orxan Cəfərli, Eldar Cavadov, Fuad Əliyev yaxşı oxu - maları, əxlaqlı davranışları ilə kursant adını ucaltmaqla yanaşı, "böyük etimadı" doğruldanlardan deyillərmi? Onlar çox yaxşı bilirlər ki, ümummilli liderin – "Sizə yaxşı təhsil almağı, peşəkar hərbçi olmağı, Vətəni qorumaq peşəsinə yaxşı yiyələnməyi, yüksək rütbəli zabit olmağı arzulayıram!" tövsiyəsini yerinə yetirmək elə Vətən qarşısında ən böyük xidmət deməkdir.

Vətənimizin tarixində yeni bir səhifə olan hərbi məktəb yarandığı gündən üzübəri ölkəmizin həyatında mühüm bir yerə sahiblənmişdir. Hərbi təhsil sistemini bir zəncirə bənzətsək məktəb artıq qoparılması mümkün olmayan həlqəyə çevrilmişdir. Artıq məktəbin xarici əlaqələri formalaşmışdır. Tədris ocağının kursantları ümumrespublika bilik olimpiadalarında layiqli nəticələr göstərməklə elmə, təhsilə önəm verdiklərini daim sübut edirlər.

2005-ci ildən başlayaraq indiyədək Məktə - bin Kursant Hərbi-Elmi Cəmiyyətinin 9 kon - fransı keçirilmişdir. Bu konfranslarda kursantlar tərəfindən ümumilikdə 450-dən çox müxtə - lif elmi mövzularda məruzələr edilmişdir.

2008-ci il 16 dekabrda Azərbaycan Respublikası Təhsil Nazirliyinin dəstəyi ilə Odlar Yurdu Universitetinin bazasında Tələbələrin XXI Respublika elmi konfransı "Ən yaxşı elmi-təd - qiqat işi" müsabiqəsi təşkil edilib keçirilmişdir. Konfransın keçirilməsində məqsəd savadlı, yüksək elmi potensiala malik gənclərin aşkar olunması və bu gənclərin hazırlığı istiqamətin-





– kursant Nəcəfov İlkin Misir oğlu "Qarışıq strategiyalı "2 x n" oyununun həllində qrafik və digər üsulların kombinə edilmə - si".

**İnformatika bölməsində:**

– kursant Mehdiyev Ziya Rza oğlu "Delfi"-də mul - timediya vasitələrinin yaradılması".



də ali məktəblərin elmi fəaliyyətinin qiymətləndirilməsi olmuşdur.

Azərbaycan Respublikası Təhsil Nazirinin 09 aprel 2009-cu il tarixli 397 saylı əmrinə əsasən Tələbələrin XXI Respublika elmi konfransı "Ən yaxşı elmi-tədqiqat işi" mü - sabiqəsi iştirakçılarının reytinq cədvəli açıq - lanmış və qaliblər müəyyən edilmişdir.

Heydər Əliyev adına Azərbaycan Ali Hər - bi Məktəbinin kursantları, riyaziyyat, fizika, informatika, mexanika, tarix, dilçilik, mə - dəniyyətşünaslıq bölmələrində fəal iştirak edərək yüksək nəticələr əldə etmişlər. Belə ki:

**Mexanika bölməsində:**

– kursant Mustafayev Teymur Mustafa oğlu "İki atəşlə artilleriya qurğusunun əlverişli möv - qedə yerləşdirilməsi";

– kursant Allahverdiyev Cavid Əliyəddin oğlu "Yastı trayektoriyalı, sabit uçuş parametrli artil - leriya hədəfini nişanlama "kompyuter trenajoru" proqram modulunun işlənməsi";

**Riyaziyyat bölməsində:**

– kursant İbrahimzadə Vahid İlqar oğlu "Dö - yüş əməliyyatının bir riyazi modeli haqqında" mövzuları üzrə məruzələrlə çıxış edərək müsa - biqənin qalibləri olmuşlar.

**Dilçilik bölməsində:**

– kursant Müslümov Təbriz Firizman oğlu "Heydər Əliyev və Azərbaycan dili" mövzusu üzrə mükafata layiq II yeri tutmuşlar.

Məktəbdə daim ictimaiyyətin nümayəndələri, ziyalılarla, ayrı-ayrı kollektivlərlə görüşlər keçirilir. Tədbirlər öz kütləviliyi və təntənəsi ilə yadda qalır.

Adını çəkib qeyd etməli olduğumuz tədbirlə - rin sayı-hesabı yoxdur.

2008-ci il mayın 2-də ulu öndər Heydər Əli - yevin anadan olmasının 85 və Azərbaycan Respublikası Silahlı Qüvvələrinin yaranmasının 90



illiyinə həsr olunmuş "Hərbi təhsil sistemində nəzəri və praktik problemlər" mövzusunda elmi-praktiki konfrans keçirilmişdir.

Konfransda ulu öndər Heydər Əliyevin həyatı və Azərbaycanın ordu quruculuğundakı fəaliyyəti haqda sənədli film nümayiş etdirilmiş və çıxışlar edilmişdir.

Konfransda Heydər Əliyev adına AAHM-in rəisi general-mayor Heydər Piriyev "Heydər Əliyev və milli hərbi təhsil sistemi" mövzusunda məruzə ilə çıxış etmişdir.

Göründüyü kimi, məktəbdə keyfiyyətli təhsil üçün komponentlər bir-birini tamamlayır. Sağlam kollektiv, bacarıqlı mütəxəssislər, yaxşı məişət şəraiti, keyfiyyətli tədris təminatı – bütün bunlar məktəbdə effektli tədrisin hərəkətverici mexanizmidir. Dərslərin keyfiyyətli keçirilməsi, kursantların elmi qavrayışlarının formalaşması, məktəbdə elmi mühitin münbitləşməsinə müəllim, pofessor heyətinin böyük töhfələri danılmazdır. Konfranslara, olimpiadalara hazırlıq ərəfəsində mövzuların seçilməsi və məruzələrin hazırlanması istiqamətində göstərilən elmi rəhbərlər fizika və riyaziyyat elmləri namizədi, dosent Qafarov Cəmaləddin Nurəddin oğlu – riyaziyyat və fizika kafedrasının dosenti, texnika elmləri namizədi, Süleymanov Tahir Süleyman oğlu – mexanika kafedrasının dosenti, texnika elmləri doktoru Nağıyev Əli Həsən oğlu – idarəetmə kafedrasının professoru, Sevdimalıyev Rafiq Cəbrayıl oğlu-riyaziyyat və fizika kafedrasının baş müəllimi, texnika elmləri namizədi, dosent Məhərrəmov Zakir Tülü oğlu – idarəetmə kafedrasının dosenti, texnika elmləri namizədi Camalbəyov Məhəmməd Asəf oğlu-idarəetmə kafedrasının dosenti, Rzayeva Həbibəxanım Müseyib qızı – mexanika kafedrasının dosenti, tarix elmləri namizədi, dosent Məhərrəmov Nizami Kazım oğlu – humanitar və sosial fənlər kafedrasının dosenti, filologiya üzrə fəlsəfə doktoru Bəşirova Gülşən İsmayıl qızı – humanitar və sosial fənlər kafedrasının dosenti, Məmmədov Eldar Xoca oğlu – riyaziyyat və fizika kafedrasının müəllimi, mexanika kafedrasının baş müəllimi Talıbov Yunus Böyükağa oğlu tərəfindən kursantlara yaxındanköməklik göstərilir və məruzələrdə əsas diqqət elmi nöqteyi-nəzərdən yanaşmaya yönəldilir.



Onu deyək ki, məktəb on il ərzində həm də



mədəni-kütləvi tədbirlər ocağına çevrilmişdir.

2005-ci il 14 aprel tarixində "Ali hərbi məktəblərdə professor-müəllim heyətinin pedaqoji bacarığının təkmilləşdirilməsi və tədrisin keyfiyyətinin yüksəldilməsi problemləri" mövzusunda elmi-praktiki konfrans keçirilmişdir.

Konfransda Heydər Əliyev adına AAHM-in rəisi general-mayor Heydər Piriyev "Ali hərbi məktəblərdə zabit kadrlarının hazırlanmasında professor-müəllim heyətinin əsas vəzifələri" mövzusunda məruzə ilə çıxış etmişdir.

Pedaqoji elmlər doktoru, əməkdar müəllim, millət vəkili Zahid Qaralov "Tərbiyənin müasir problemləri" mövzusunda, Azərbaycan Memarlıq və İnşaat Universitetinin rektoru, Memarlıq Akademiyasının və Dünya Şərq Akademiyasının akademiki professor Gülçöhrə Məmmədova "Ali təhsildə islahatlar" mövzusunda, Azərbaycan Dövlət Pedaqoji Universitetinin mühəndis-pedaqoji və bədii qrafika fakültəsinin dekanı, professor Həşim Həşimov "Ali məktəblərdə tədris prosesinin avropa standartlarına uyğun səmərəli təşkilinin müasir problemləri" mövzusunda, Türkiyə Silahlı Qüvvələrinin zabiti polkovnik Ömər Karabibər "Tədris prosesindəki problemlər" mövzusunda fikir və mülahizələrini söyləmişlər.

Paytaxtda, eləcə də, ölkə miqyasında keçirilən idman tədbirlərində məktəb kursantları həm fərdi, həm də kollektiv idman növlərində dəfələrlə uğurlu qalibiyyətlər əldə etmişlər. Elə yerindəcə qeyd edək ki, burada həm də idmançılar yetişdirilir. İdmanın bir neçə növü üzrə püxtələşən idmançılar respublika səviyyəli yarışların qalibi olmuş, ordu birinciliklərinin favoritləri kimi səhifə yazmışlar.

Müəllim-zabitlər – polkovnik-leytenant Novruz İsmiyev, polkovnik-leytenant Eldar İsmayılov, polkovnik-leytenant Arif Ağarzayev, polkovnik-leytenant Novruz Bəkirov, mayor Ələkbər Bağırov kimi bacarıqlı əməkdaşlar kursantların bilik qazanmasında əllərindən gələni edirlər. Yuxarıda qeyd edildiyi kimi məktəbin xarici əlaqələrinin inkişafı geniş vüsət almışdır.

Müntəzəm olaraq NATO çərçivəsində və xüsusən "Sülh naminə tərəfdaşlıq" proqramı ilə bağlı tədbirlərdə, təlimlərdə və kurslarda təhsil ocağının nümayəndələri, müdavimlər layiqli iştirakla seçilmişlər. Bu da tədris olunan mövzuların müntəzəm olaraq təkmilləşdirilməsinə və müasir inkişafın tələblərinə xidmət edir. Bu təcrübə mübadiləsi əlbəttə ki, öz nəticəsini göstərir. NATO - Sülh naminə əməkdaşlıq kafedrasının zabit-müəllim heyəti tərəfindən





məktəbdə ayaq qoyduğumuz hər guşədə müasir standartlara cavab verəcək şəraitlə rastlaşırsan. Yeni istifadəyə verilmiş tədris binası göz oxşayır.

Tədris haqqında isə polkovnik Gəray Bağırovun sözləri ilə məlumat vermək istərdik. O bildirdi ki, təhsildə ana xətt tədrisin təşkili, onun planlaşdırılmasıdır: "Məktəbdə dərslərin keçirilməsində, proqramların hazırlanmasında, məşğələlərin təşkilində tədris şöbəsinin yüksək təşkilatçılığı göz önündədir. Belə ki, aşağıdakı dərs vəsaitləri, metodiki göstərişlər, elmi məqalələr hazırlanmışdır:

1. "Politologiya və beynəlxalq münasibətlər" (dərs vəsaiti, 2004-2014).

2. "Politologiyanın və beynəlxalq münasibət - ərin öyrənilməsinə dair metodiki vəsait"

3. "Politologiya və beynəlxalq münasibətlər" fənninin öyrənilməsi üzrə xüsusi metodika (metodiki vəsait).

4. "Müəllim rəhbərliyi altında kursantların sərbəst işlərinin təşkili və keçirilməsi" üzrə metodiki tövsiyələr (metodiki vəsait).

5. "Beynəlxalq siyasət" mövzusunun öyrənilməsinə dair metodiki vəsait.

6. "Beynəlxalq hüquq" mövzusunun öyrənilməsinə dair metodiki vəsait.

7. "Beynəlxalq münasibətlərin subyekti-döv - ət, "Müasir tədrisin prinsip və metodları".

8. "Siyasi rejimlər" mövzusunun öyrənilməsinə dair metodiki vəsait.

9. "Beynəlxalq münasibətlər sistemi"( meto - diki vəsait).

10. "Diplomatiya" mövzusunun öyrənilməsinə dair metodiki vəsait.

11. "Təşkilatlarda konfliktlərin yaranmasının xüsusiyyətləri və onların profilaktikası.

Məişət şəraitindən danışmağa gələndə isə hərbi məktəbin bir cox kursantları mötəbər mü - kafatların qalibi olmuşdur. Elmi-praktik konfranslarda neçə-neçə elmi mövzular işlənib hazırlanmışdır. Elə bunları sadalamaq yetərlidir ki, məktəbdə təhsilin səviyyəsinin necə olması barədə bir fikrə gələk".

Bəli, müəllimlər haqqında söhbət açdıq. Ancaq burada oxuyan kursantlar hərbi həyatı məktəbin nümunəvi zabitlərindən öyrənirlər. Biz bunu idarəetmə kafedrasının timsalında göstər - mək istərdik. Burada müəllimlərlə yanaşı hərb - çilərin əməyini ikiqat qeyd etmək gərəkdir. Kursantların gələcəyin zabiti kimi yetişmələ - rində, onlara komandir və lider keyfiyyətlərinin aşılanmasında orada xidmət edən zabit korpusunun böyük zəhməti var. İdarəetmə kafedrası Silahlı Qüvvələr üçün "Silahlı Qüvvələrin ida - rəedilməsində avtomatlaşdırmanın təşkili" ixtisası üzrə zabit kadrlarını hazırlayır. Kafedra - nın əsas məqsədi Azərbaycan Silahlı Qüvvə - lərinin tələblərinə müvafiq, yüksək ixtisaslı, elm və texnikanın müasir nailiyyətlərinə yiyələnmiş, vəziyyəti təhlil edərək müstəqil qərar qəbul etməyi bacaran, analitik düşünmə qabiliyyətinə malik, informasiya-kommunikasiya texnologiyalarının imkanla-



randan istifadə etməyi bacaran peşəkar kadr zabit heyəti hazırlamaqdır.

Müasir dövrdə informasiya-kommunikasiya texnologiyalarının əhəmiyyəti artmışdır. İnformasiya-kommunikasiya texnologiyaları cəmiyyətin inkişafına təsir göstərən əsas amillərdən birinə çevrilmiş, onun əhatə dairəsi dövlət strukturlarını, o cümlədən hərbi fəaliyyətin bütün sahələrini, vətəndaş cəmiyyəti institutlarını, sosial-iqtisadi sahələri, elm və təhsili, mədəniyyəti, bütövlükdə insanların həyat tərzini əhatə etmişdir.



**Kafedranın professor-müəllim heyəti aparıcı qüvvə kimi** İnformasiya və kommunikasiya texnologiyalarının verdiyi imkanlar əsasında zabit heyətinin hazırlanması məqsədilə kafedrada kifayət qədər yüksəkixtisaslı, elmi dərəcəsi və böyük elmi-pedaqoji təcrübəsi olan zabit-müəllim heyəti fəaliyyət göstərir və bu şəxsi heyətin 80 faizindən çoxu 10 ildən artıq pedaqoji staja malikdir.

Kafedrada fəaliyyət göstərən müəllim heyətindən 9 nəfərin elmi dərəcəsi və müxtəlif elmi adları, o cümlədən 1 nəfərin "elmlər doktoru", 8 nəfərin isə "elmlər namizədi" elmi dərəcəsi, 1 nəfərin "professor", 6 nəfərin "dosent", 2 nəfərin isə "baş elmi işçi" elmi adları vardır.

2004-2014-cü illər ərzində kafedrada 30 dərs vəsaiti, 42 metodiki vəsait və 150-yə yaxın elmi məqalə yazılmışdır. Kafedranın professoru texnika elmləri doktoru Əli Nağıyev, dosentlər Zakir Hacıyev, Zakir Məhərrəmov və Babək Abasov mütəmadi olaraq beynəlxalq elmi jurnallarda məqalələrlə çıxış etmiş və beynəlxalq elmi konfranslarda iştirak etmişlər.

Kafedranın professor-müəllim heyətinin tərkibində Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda gedən döyüş əməliyyatlarında iştirak etmiş və "Müharibə veteranı" adını daşıyan 7 nəfər vardır. Bunlar polkovnik Zülfəli Məmmədov, polkovnik-leytenant Klos Abbasov, mayor Sahib Məmmədov, təlimatçı Nizami Abışov, təlimatçı Sahibəddin Əliyev, dosent Zakir Hacıyev, müəllim Əjdər Əfəndiyevdir.

Kafedraya Qarabağ müharibəsi veteranı polkovnik Zülfəli Məmmədov rəhbərlik edir. O, 1993-1994-cü illərdə Qarabağ uğrunda gedən döyüşlərdə iştirak etmişdir. 1988-ci ildə Leninqrad Ali Hərbi Komandirlər Məktəbini, 2007-ci ildə isə Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Hərbi Akademiyasını bitirmişdir. "Hərbi xidmətdə fərqlənməyə görə" medalı ilə təltif olunmuşdur.





Biz də redaksiya adından kafedranın bütün kollektivini alqışlayır, əlamətdar ildönümü münasibəti ilə onları təbrik edirik.

AAHM-ə Heydər Əliyevin adının verilməsindən üzü bu yana gö ü - lən işlər yetərincədir. Bu on il ərzində elə hallar olub ki, bu ali təh - sil ocağının yetirməsi xidmətini davam etdirmək üçün məktəbə qayıdıb və zabit kimi fəaliyyət göstərib. Belələri keçmiş kursant və hazırkı zabit kimi yaxşı bir nümunədir.

Kursantların mənəvi-psixoloji hazırlığının yüksək olmasında tərbiyə işini təşkil edən şöbənin əməyi danılmazdır. Bu nümunələri göstərməklə biz demək istəyirik ki, ümumiyyətlə, zabit heyəti öz işini bariz şəkildə həyata keçirərək, gələcəyin komandirlərini hərbi həyata hazırlayırlar. Məktəbdə təbliğat-təşviqat, ideoloji tərbiyə işinin yüksək olduğu ay - dındır. Amma qeyd etmək istərdik ki, bunun üçün yetərincə zəhmət çəkilmişdir.

Təhsilin inkişafı istiqamətində məktəbdə xey - li yeniliklər həyata keçirilmişdir.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 12 yanvar 2009-cu il tarixli, 8 nömrəli qərarı ilə təsdiq edilmiş "Ali təhsilin bakalavr pilləsi ixtisaslarının siyahısı"na uyğun olaraq Azər - baycan Respublikası Təhsil Nazirinin 29 mart 2009-cu il tarixli, 342 saylı əmri ilə qüvvəyə minmiş "İxtisaslar üzrə bakalavr hazır - lığının məzmununa və səviyyəsinə qo - yulan minimum tələbləri" müəyyənləş - dirən Dövlət Təhsil Standartının Struk - turuna uyğun olaraq, 2009-2010-cu tədris ilindən etibarən Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbin - də yeni tədris planı hazırlanmış və kur - santlarla yeni müasir ixtisaslar üzrə təhsil həyata keçirilməyə başlanmışdır. Bu ixtisaslar aşağıdakılardır:

– Elektronika, telekommunikasiya və radiotexnika mühəndisliyi;
– Mexanika mühəndisliyi;
– İnformasiya texnologiyaları və sistemləri mühəndisliyi;
– İnşaat mühəndisliyi.

Artıq bu ixtisaslar üzrə 2013-cü ildə bir kurs buraxılmış və məzunlara diplomlar verilmişdir. Hazırda adı çəkilən ixtisaslar üzrə təhsil davam etdirilir.

### RİYAZİYYAT VƏ FİZİKA KAFEDRASININ YETİRMƏLƏRİ OLİMPİADALARDA

Riyaziyyat və fizika kafedrasında riyaziyyat, fizika və kimya fənləri tədris olunur. Bu fənlə - rin tədrisinin əsas məqsədi kursantlara yüksək - ixtisaslı zabit kadrları kimi yetişmələri üçün məntiqi düşüncə qabiliyyəti aşılamaq, analitik



nifatlaşdırılır, sinir iflicedici, zəhərləyici, boğucu maddələrin təsir xüsusiyyətləri haqqında məlumat verilir. Respublika fənn olimpiadalarında kafedranın yetişdirmələrinin layiqli yer tutması da bu səbəbdəndir.

**2008-ci il**

Fizika fənni üzrə II yer – kursant Ələsgərov Arif Vaqif oğlu;

Riyaziyyat fənni üzrə IV yer – kursant Fərzəliyev Mahir Sahib oğlu;

fikir yürütmək və ekstremal hallarda maksimum düzgün qərar qəbul etmək keyfiyyətləri formalaşdırmaq məqsədilə zəruri biliklər öyrətməkdir. Riyaziyyat və fizika kafedrasında tədris olunan fənlər digər texniki və hərbi fənlərin mənimsənilməsinin əsasını təşkil etdiyindən bu fənlərin tədrisi çox böyük əhəmiyyət daşıyır.

Fizika fənninin tədrisində kursantlara texnika və hərbi texnikada fizika qanunlarından istifadə edilməsi, müasir atıcı silahların və digər hərbi texnikanın işləmə prinsipləri öyrədilir.

Müasir döyüş əməliyyatlarının idarəolunması riyaziyyatla bilavasitə bağlı olduğundan riyaziyyat fənninin tədrisində kursantlara yüksəkixtisaslı zabit kadrları kimi yetişmələri üçün məntiqi, analitik fikir yürütmək və ekstrimal hallarda maksimum düzgün qərar qəbul etmək keyfiyyətlərini aşılamaq məqsədilə zəruri riyazi biliklər, müxtəlif hərbi ixtisaslarda istifadə olunan işçi düsturlardan istifadə və hesabat üsulları öyrədilir.

Kimya fənninin tədrisi nəticəsində kursantlara kimyəvi maddələr, onların hərbdə tətbiqi və rolu, düzgün istifadəsi haqqında biliklər verilir. Kimyəvi maddələri, qeyri-üzvi və üzvi birləşmələr, həmin birləşmələrdən yandırıcı maddələrin tərkibində istifadə edilməsi, metallar, barıt və detenatorların, kimyəvi-zəhərləyici maddələrin tərkibi və xassələri haqqında məlumat verilir. Partlayıcı maddələrin təsnifatı, döyüş zəhərləyici maddələri təs-

**2009-cu il**

Fizika fənni üzrə III yer – kursant Məşiyev Nofəl Ərəstun oğlu;

Fizika fənni üzrə IV yer – kursant Namazəliyev Tural Adil oğlu;

İnformatika fənni üzrə IV yer – kursant Məmmədov Elnur Cəfər oğlu;

**2011-ci il**

Fizika fənni üzrə I yer – kursant Səlimli Mirkamran Mirrahim oğlu;

Fizika fənni üzrə II yer – kursant Səfərov Orxan Famil oğlu;

**2012-ci il**

Fizika fənni üzrə III yer – kursant Səlimli Mirkamran Mirrahim oğlu;

Fizika fənni üzrə IV yer – kursant Səfərov Orxan Famil oğlu;

Beləliklə, sözün bitdiyi yerə gəlib çatdıq.

***Biz məktəbdə gördüklərimizdən fərəh duymuşuq. İnanırıq gələcəyin zabitlərini hazırlayan hərbi təhsil daima gəncliyin etibar etdiyi müqəddəs seçim olacaqdır.***

# HƏRBİ TƏHSİL OCAĞI ULU ÖNDƏRİMİZİ UNUTMUR VƏ UNUTMAYACAQDIR

**HEYDƏR ƏLİYEV ADINA AZƏRBAYCAN ALİ HƏRBİ MƏKTƏBİNDƏ ÜMUMMİLLİ LİDERİN 90 İLLİK YUBİLEYİ TƏNTƏNƏ İLƏ QEYD EDİLDİ**



***Ümummilli liderimiz Heydər Əliyevin 90 illiyinə həsr olunmuş mərasimi Müdafiə Nazirliyi Tərbiyə İşləri İdarəsinin zabiti polkovnik Abdulla Qurbani açıq elan etdi. Mərasim iştirakçıları ali hərbi məktəbin orkestrinin müşayiəti ilə Azərbaycan Respublikasının Dövlət himnini ifa etdilər. Himnin oxunuşundan sonra tədbirin aparıcısı Əməkdar incəsənət xadimi Abdulla Qurbani sözünə davam edərək ulu öndər Heydər Əliyevin hakimiyyətdə olduğu illərdə xalq üçün, ölkəmizin inkişafı üçün gördüyü böyük işlərdən ətraflı söz açdı.***

Xalqımızın dahi oğlu, ulu öndər Heydər Əliyevin müqəddəs adı və möhtəşəm fəaliyyəti Azərbaycan tarixinə qızıl hərflərlə həkk olunmuşdur. O, öz müdrik siyasəti, dönməz əqidəsi və uzaqgörənliyi ilə xalqımızın müstəqillik arzusunun gerçəkləşdirilməsini, milli dövlətçiliyimizin möhkəm bünövrə üzərində yenidən qurulmasını təmin etmişdir. Ulu öndər xalqımızın taleyində, mənəvi, siyasi və ictimai həyatında misilsiz rol oynayıb. Dahi rəhbərin hakimiyyətdə olduğu otuz ildən artıq bir dövr ərzində qazandığımız bütün nailiyyətlərin fövqündə məhz Heydər Əliyev fenomeni, qüdrəti, dühası və uzaqgörənliklə yürütdüyü müdrik siyasi kurs dayanmışdır.

90 illik yubileyini qürur hissi ilə qeyd etdiyimiz ulu öndərimiz Heydər Əliyevin həyatı və siyasi fəaliyyəti çoxəsrlik dövlətçilik tariximizdə mühüm yer tutur. Azərbaycan xalqının tarixində layiqli yer tutan dahilər, bacarıqlı sərkərdələr və dövlət xadimləri çox olub. Xalq öz böyük oğullarını zaman-zaman xatırlayıb yad edir. Bütün həyatını Azərbaycan xalqının və dövlətçiliyimizin taleyi ilə bağlayan, yüksək insani keyfiyyətlərə, dövləti idarə etmək bacarığına malik olan Heydər Əliyev bənzərsiz və müqayisəedilməz şəxsiyyət idi.

XX yüzillikdə xalqımızın nəhəng tarixi şəxsiyyətlərindən biri məhz ümummilli liderimiz, dahi şəxsiyyət Heydər Əliyevdir. Dünyada elə müdrik, elə uzaqgörən dövlət xadimləri olublar ki, onlar öz ölkəsinin və millətinin taleyində mühüm rol oynayıblar, xalqlarının xilaskarları olublar. Müstəqil Azərbaycanın memarı olan ümummilli liderimiz Heydər Əliyev də tarixdə dərin iz qoymuş dahi şəxsiyyətlərdən biridir. Heydər Əliyev Azərbaycan xalqının tarixinə Azərbaycan dövlətinin qurucusu və banisi kimi daxil olmuşdur. Onu uca zirvələrə qaldıran, lider səviyyəsinə yüksəldən ən yüksək və ali keyfiyyətlərdən birincisi doğma xalqına bağlılığı və inamı idi. Xalq da öz liderinə sadiq idi, ona inanır, onu özünə mayak sanırdı. Bənzərsiz şəxsiyyəti, siyasət və dövlət xadiminə xas olan böyük istedadı ilə fərqlənən ümümmilli lider Heydər Əliyev hələ sağlığında canlı əfsanəyə çevrilmişdi.

Azərbaycanlı olmağı ilə həmişə fəxr edən, öyünən ümummilli liderimiz Heydər Əliyev bütün şərəfli ömrünü xalqının rifahına, Azərbay-




canın yalnız hərbi xərcləri Ermənistanın dövlət büdcəsindən çoxdur.

Ümummilli liderimiz Heydər Əliyevin xatirəsi hər birimizin qəlbində əbədi yaşayacaq.

Ulu öndərin dövlət quruculuğu, ordu quruculuğu, iqtisadi islahatlar, milli şüurun dirçəlişi, ideologiyamızın inkişafı və formalaşması, gənclərimizin hərbi vətənpərvərlik tərbiyəsi və digər sahələrdəki siyasi irsi bu gün elm ocaqlarında dərindən öyrənilir və təbliğ olunur. Ümummilli liderimiz Heydər Əliyevin həyat yolu və siyasi fəaliyyəti hər bir Azərbaycan vətəndaşı üçün örnək və nümunədir. Hər birimiz onunla öyünür və fəxr edirik.

Ulu öndər bütün mənalı həyatını xalqına həsr etmişdi, Azərbaycan üçün yaşamışdı, öz ideyaları, amalları, idarəçilik və diplomatik təcrübəsi ilə mükəmməl bir elmi-siyasi məktəb yaratmışdı. Bu gün Azərbaycanın milli ideologiyasını, iqtisadi-siyasi gerçəkliyini, mədəni həyatını özündə əks etdirən və möhtərəm Prezident İlham Əliyev tərəfindən uğurla həyata keçirilən siyasi kurs da bu məktəbdən qidalanır, gücünü, qüdrətini Heydər Əliyevin ideyalarından alır. Odur ki, məhz bu siyasi kurs müstəqil Azərbaycanı xoşbəxt gələcəyə inamla aparmağa qadirdir.

Ulu öndərin 90 illiyinin təntənəli surətdə qeyd olunması üçün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 21 yanvar 2013-cü il tarixdə sərəncam vermişdir. "Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin 90 illik yubileyi haqqında" sərəncamda deyilir: "Heydər Əliyev öz siyasi dühası ilə Azərbaycanın müasir simasını müəyyənləşdirmiş və xalqımızın taleyində silinməz izlər qoymuşdur.

canı qurub yaratmağa və müstəqil ölkəsini dünyada tanıtmağa sərf etdi. Güclü, qüdrətli və yenilməz bir dövlət quraraq, tarixdə heç vaxt pozulmayan dərin izlər qoydu.

Ötən əsrin 70-ci illərindən Azərbaycana rəhbərlik edən ümummilli liderimiz Heydər Əliyevin yüksək təşəbbüskarlığı, müdrik siyasəti, səy və bacarığı sayəsində ölkəmiz, sözün həqiqi mənasında, intibah dövrünü yaşamışdır. Həmin illər Azərbaycanın yüksəliş dövrü idi. Bu o vaxtlar idi ki, Azərbaycan bir respublika kimi keçmiş Sovetlər Birliyinin tərkibində birbaşa Moskvadan idarə olunurdu. Lakin Heydər Əliyev ölkəmizin çiçəklənməsi və inkişafı naminə böyük çətinliklərlə də olsa, Mərkəzin diqqətini ölkəmizə yönəldə bilmişdi. Bu gün adi hal kimi qiymətləndirdiyimiz hər bir addımı o illərdə atmaq sarsılmaz iradə, qətiyyət və cəsarət, hər şeydən öncə isə böyük risk tələb edirdi. Böyük tarixi şəxsiyyət kimi ümummilli liderimiz Heydər Əliyev bunu çox yaxşı bacarmışdı.

Ümummilli liderimizin layiqli davamçısı möhtərəm Prezidentimiz İlham Əliyevin rəhbərliyi ilə başqa sahələrdə olduğu kimi ordu quruculuğunda da uğurlu islahatlar həyata keçirilir, Silahlı Qüvvələrə ayrılan vəsait ildən-ilə artırılır. Təkcə onu qeyd etmək kifayətdir ki, Azərbay-

Onun siyasəti nəticəsində əldə olunmuş misilsiz nailiyyətlər göz qabağındadır. Bu uğurlar paytaxtımızın daim yeniləşən görkəmində, şəhər və rayonlarımızın sürətlə modernləşməsində, iqtisadiyyat və elmdə, təhsil, mədəniyyət və səhiyyədə, eləcə də ictimai-siyasi həyatımızda öz əksini tapmışdır".

Ümummilli lider Heydər Əliyevin adını daşıyan Azərbaycan Ali Hərbi Məktəbində də ulu öndərin anadan olmasının 90 illik yubileyi təntənə ilə qeyd edildi. Ali hərbi təhsil müəssisəsi həmin gün bayramsayağı bəzədilmişdi. Xalqın xilaskar oğlunun 90 illik yubileyinə həsr olunmuş mərasim öncə "Heydər Əliyev və ordu quruculuğu" ideoloji mərkəzindən başlandı. Tədbirə dəvət olunmuş qonaqlar – Böyük Vətən müharibəsi veteranları, incəsənət ustaları, yüksək rütbəli zabitlər mərkəzin eksponatları ilə yaxından tanış oldular və burada rəy kitabına ürək sözlərini yazdılar.

İdeoloji mərkəzə baxışdan sonra qonaqlar,incəsənət ustaları və digər mərasim iştirakçıları ümummilli liderimiz Heydər Əliyevin ali hərbi təhsil ocağının qarşısında ucaldılmış əzəmətli heykəlinin önünə gül-çiçək dəstələri qoydular. Heykəlin ətrafında fəxri qarovul düzülmüşdü.

Qonaqlar ulu öndərin anadan olmasının 90 illiyi qeyd olunacaq böyük zala daxil olanda, məktəbin rəisinə şəxsi heyətin mərasimə hazır olduğu barədə məruzə olundu. Sonra hər kəs öz yerini tutdu. Mərasim keçirilən geniş zalda ümummilli liderin böyüdülmüş portreti asılmışdı.

Bildirildi ki, Heydər Əliyev ölkəyə rəhbərlik etdiyi illər ərzində iqtisadiyyatımızın inkişafı ilə yanaşı, böyük elmi, intellektual, kadr, iqtisadi və enerji potensialının yaradılması, ordu quruculuğu istiqamətində aparılan uğurlu islahatlar ölkəmizin müstəqil yaşaması üçün möhkəm təməl qoymuşdur. Məhz buna görə də, Azərbaycan xalqı qazandığı müstəqilliyə və onun qorunub saxlanılması sahəsində əldə etdiyi nailiyyətlərə görə ulu öndərə minnətdardır.

Fəaliyyəti ilə tarix yaradan bu dahi şəxsiyyət beynəlxalq siyasət aləmində də heyranlıqla qarşılanıb və hal-hazırda böyük hörmət və ehtiramla anılır. Bu mənada Azərbaycan xalqı özünü xöşbəxt saya bilər ki, kifayət qədər mürəkkəb və ziddiyyətlərlə dolu dövr kimi xarakterizə edilən XX əsrdə 30 ilə yaxın bir müddətdə Heydər Əliyev kimi dahi bir insanın yorulmaz fəaliyyəti, gərgin zəhməti sayəsində Azərbaycan sürətli, dönməz inkişaf yoluna qədəm qoymuşdur.

Bakı şəhər Gənclər və İdman Baş İdarəsinin rəisi Raqif Abbasov tədbirdə çıxış edərək ulu öndərimiz Heydər Əliyevin gənclərə göstərdiyi diqqət və qayğıdan söhbət açdı.

Azərbaycanın xalq artisti Amalya Pənahova isə öz çıxışında ümummilli liderimiz Heydər Əliyevlə bağlı maraqlı xatirələrindən söz açdı. Heydər Əliyev həmişə deyirdi ki, mən fəxr edirəm ki, mən azərbaycanlıyam, - deyə Amalya xanım çıxışına davam etdi: – Bu gün mən də fəxr edirəm ki, Heydər Əliyev kimi dahi bir insanla eyni vaxtda, eyni zamanda yaşamışam. Heydər Əliyev Azərbaycan xalqının yaddaşında əbədi yaşayacaqdır. O, xalqımızın xilaskarıdır. Bu gün hər kəs mətinliyi, qətiyyəti və başqa yüksək mənəvi keyfiyyətləri ulu öndərdən öyrənməlidir.

Böyük Vətən müharibəsinin veteranları Əmrəli Əmrəliyev və Surxay Ağazadə çıxış edərək ulu öndərlə bağlı xatirələrindən danışdılar.

Xalq artisti Zaur Rzayev, tanınmış müğənni Ramil Qasımov, Silahlı Qüvvələrin Mahnı və Rəqs ansamblının üzvləri Samirə Sadıqova, Leyla Vahidqızı, Elçin Məmmədov, Ağabala Abdullayev və başqaları ulu öndərin, vətənpərvərliyini və qəhrəmanlığını tərənnüm edən mahnılar ifa etdilər. Kursantlar Heydər Əliyevə həsr olunmuş şeirlər söylədilər.

Ulu öndər Heydər Əliyevin 90 illiyinə həsr olunmuş mərasim xoş notlarla başa çatdı.

# HƏR ŞEY YÜKSƏK İXTİSASLI KADRLARIN YETİŞDİRİLMƏSİ UÇUN

Nə yaxşı ki, ustalaşmaq, püxtəlik, sənətkarlıq var. Yoxsa böyük işlərin öhdəsindən gəlmək necə çətin olardı. Buna görə də təcrübə və müdriklik həmişə öz sözünü deyib. İndi bu fikir ona görə mənim aləmimdə aktuallıq qazandı ki, gün ərzində Azərbaycan Ali Hərbi Məktəbində tanış olduğum böyük quruculuq işləri, rəngarəngliyi özündə əks etdirən sanballı töhfələr, silsilə uğurlar və s. haqqında bir yazı yazmaq istədim və haradan başlayıb harada qurtaracağımı bir anlıq kəsdirə bilmədim. Amma tərəddüd tez keçdi, təcrübə mənim də köməyimə çatdı. Deyirəm ki, böyük işlər görüb başa çatdırmış bir şəxsə və ya şəxslərə həsəd aparmaq olar, ancaq paxıllanmaq yaramaz. Görülən işdən gül iyi gələr, desələr də, görülən işə düzgün qiymət vermək də insanlıq borcudur.

Bir müddət əvvəl Müdafiə Nazirliyinin komandanlığı Azərbaycan Ali Hərbi Məktəbində böyük tikinti və təmir işlərinə rəvac vermişdir. Çox da uzaq keçmiş sayılmayan zaman kəsiyində böyük bir tikinti meydançasını xatırladan ali hərbi məktəbin ərazisini həmin vaxt dolaşanda, adamı bədbinlik bürüyürdü.



Daxilən belə bir fikir adamı narahat edirdi - "görəsən, bu işlər nə vaxt, həm də deyilən səviyyədə başa çatacaqmı?". Çünki işin əhatəsi çox böyükdü. Burada bir nüansı da xatırlatmaq lazımdır ki, ölkənin ən sanballı hərbi təhsil ocağının tədris qayğıları da az deyil, axı. Böyük təsərrüfatı, müxtəlif kateqoriyalı şəxsi heyəti idarə etmək və üstəlik də təmir-tikinti işlərinin gedişatına nəzarət etmək böyük vaxt və səy tələb edir. Bunu sübut üçün təkcə onu demək bəs edər ki, biz orada olduğumuz müddətdə yalnız təmir və təsərrüfat qayğıları ilə bağlı məktəb rəisi ilə, idarə heyəti ilə, kafedraların zabit heyəti ilə, taborların komandir heyəti ilə onlarla müzakirələrin şahidi olduq. Gəlin, söhbəti uzatmayaq və konkret baxaq görək bu elm ocağının bəhs etmək istədiyimiz nailiyyəti nədən ibarətdir.

Ümummilli liderimiz Heydər Əliyev vətənpərvərlik tərbiyəsinin əhəmiyyətini belə ifadə etmişdir: "Hər bir əsgər, zabit, döyüşçü vətənpərvərlik hissini, Vətənə, torpağa, xalqımıza sədaqət hissini hər şeydən üstün tutmalıdır". Bu qiymətli sözləri qeyd etməkdə məqsəd odur ki, ilk olaraq bu Vətən sevgisini yaradan başlıca meyarlardan, hərbi-ideoloji işdən, hərbi tərbiyə işindən, mənəvi-psixoloji hazırlıqla bağlı hərbi məktəbdə görülən əhəmiyyətli işlərdən danışmaq istəyirik. "Heydər Əliyev və ordu quruculuğu ideoloji mərkəzi"nin yaradılması hərbi-ideoloji işə önəm verilməsindən irəli gəlir. Yüksək səviyyəli tərtibata malik olan mərkəzi Müdafiə Nazirliyinin Mənəvi-psixoloji Hazırlıq və İctimaiyyətlə Əlaqələr İdarəsi və məktəb komandanlığı qısa vaxtda hazırlayıb ərsəyə gətirmişlər. Mədəni-asudə iş, təbliğat və təşviqat yenilikləri yeni bir vüsət almışdır.



üçün burada böyük altqurum işləri görülmüşdür. Sanki burada havadan bir şüar asılmışdır – hər sahədə yenilik, hər yerdə quruculuq. Bunu yolüstü nəzər yetirdiyimiz idman şəhərciyində də gördük. İdman şəhərciyi tam yenilənib kursant və əsgərlərin ixtiyarına verilmişdir. İdman şəhərciyi ilə yanbayan olan tədris binalarının indiki vəziyyətindən onsuz da danışacağıq, ancaq bir-iki söz keçmiş gör-



Ən başlıcası, bütün bunlar gözəl bir ortamda – çağırışlarla dolu, vətənpərvərlik ideyalarının inikasını özündə əks etdirən stend və şəkillərlə bəzədilmiş, bayrağımızla, dövlət rəmzlərinin oymaları ilə şərəfləndirilmiş dəhlizlərdə, nəfis təmirli bina və otaqlarda yer tutur. Bunun davamı kimi yüksək səviyyəli qonaqları qəbul etmək üçün konfrans zalları və brifinq otaqlarının beynəlxalq standartlara cavab verdiyini söyləyə bilərik. Aydındır ki, AAHM-də əsas diqqət təhsilə yönəlmişdir. Burada təhsillə bağlı yeniliklər bir-birini daha davamlı izləyir. Təhsilin əsas ilhamvericisi isə tədrisdir. Lakin məktəblə tanışlıq ərəfəsində bizi cəlb edən bir fikrin, – "şərait və mühitin insanın yetişməsində böyük rolu vardır" – məktəb rəisi tərəfindən səsləndirilməsi, hələ tədris yeniliklərinə keçməmişdən əvvəl məişət şəraitinin, zahirin, ətrafın daxili aləmə təsirindən danışmaq istəyirik. Hərbdə belə bir söz var – nəzarət-buraxılış məntəqəsi hərbi bölmənin "sifətidir". Çünki hərbi hissə ilə ilk tanışlıq ordan başlanır. Məktəbin yeni tikilmiş nəzarət-buraxılış məntəqəsinə söz ola bilməz. Buradan başlayan xoş təəssüratımız ancaq artan diaqram üzrə davam etdi. Qərargaha, ayrı-ayrı binalara tərəf üz tutub gedərkən seyr etdiyimiz, göz oxşayan yaşıllıq böyük zəhmət və səyin nəticəsində yaradılmışdır, lakin ağaca, bitkiyə can verən su ehtiyatının əldə olunması

kəmi haqqında demək yerinə düşər. Burada zəruri əyani vəsaitlərin olub-olmaması, metodik kabinet və müəllimlər otağının vəziyyəti bir yana, giriş və dəhlizlər başqa tədris müəssisələrindən nə qədər yaxşı olsa da, rəhbərliyi qane etmirdi.

Bu gün isə siz buyurub bu tədris binasının gözəlləşmiş, yeniləşmiş siması ilə tanış ola bilərsiniz. Belə də olmalıydı. Axı bu məktəb ən öncül ali hərbi məktəb olmaqla yanaşı, həm də ulu öndər Heydər Əliyevin adını daşıyır.

Bir öyrədən üçün ən mühüm olan əyani dərs vəsaitidir, xüsusən də hərbdə. Ona görə ki, sanki hərbi mütəxəssis çoxyönlü bilgilər "qəbuledicisidir". Təkcə biz taktika kafedrasında, hərbi coğrafiya, hərbi topoqrafiya, kütləvi qırğın silahlarından mühafizə, kəşfiyyat ixtisasının əsasları və s. fənlərinin tədris olunduğunu görürük. Bundan əlavə, təxminən, bu sayda fənn



larının ümumi vəzifələrini, onların arasında qarşılıqlı münasibətləri öyrədir". Mexanika kafedrasında "mexanika mühəndisliyi"nin öyrədilməsi üçün siniflərdə bütöv texnika və avtomobil əyani vəsait bazası, simulyasiya-idarəetmə kompyuter avadanlıqları quraşdırılmışdır. İndi heç bir ordunu xarici ordularla əlaqələrsiz təsəvvür etmədiyimiz kimi, təhsildə də digər ölkələrin Silahlı Qüvvələrinin canlı və texniki qüvvələrinin öyrənilməsi mümkünsüzlüyünü inkar etmək olmaz. Buna görə də biz məktəbdə mühəndis kafedrasının simasında kafedraya aid dərs otaqlarında olan digər ölkələrin mühəndis-istehkam vasitələrinin öyrədilməsi ilə qarşılaşdığımızı bir misal kimi nəzərinizə çatdırırıq. Amma yenə təkrar edirik: yaxşı şərait olmasa, keyfiyyətli tədrisdən söhbət açmağa dəyməz. Tədris binasında yaradılmış ümumi soyutma və isitmə sisteminin qurulması, standartlara cavab verən sinif otaqlarının, metodik kabinetlərin, müzaki-

bazası olan daha 9 kafedrada kursantlar dinləyiciyə çevrilir. Məhz buna görə də əyani vəsaitlərlə zəngin olan sinif otaqlarını bu gündən başlayaraq biz AAHM-in tədris binasında həmişə görəcəyik, keçmişdən fərqli olaraq. Bir az da fərqli yanaşsaq, burada fənlərdən, istiqamətlərdən, ixtisaslardan, iş fəaliyyətinin öyrədilməsindən ibarət kompleks tədris "lövhəsini" görə bilərik. Hərbi məktəbin humanitar və sosial fənlər kafedrasının annotasiyasını oxuyanda hər şey aydın olur; "humanitar və sosial fənlər kafedrası – Azərbaycan dili və nitq mədəniyyəti, fəlsəfə, Azərbaycan tarixi, hərbi psixologiya və pedoqogika, sosiologiya, Azərbaycan Respublikasının Konstitusiyası və hüququn əsasları, Azərbaycan Respublikası Silahlı Qüvvələrinin ümumqoşun nizamnamələri fənlərini tədris etməklə, kursantlara Azərbaycan tarixinin əsas mərhələləri və xronologiyası barədə elmi təsəvvürə malik olmağı, Azərbaycan Respublikasının dövlət dilini sərbəst bilməyi, Azərbaycan mədəniyyətini, onun dünya mədəniyyəti və sivilizasiyasında tutduğu yeri qiymətləndirməyi, sosial mühit və sosial vərəsəlik münasibətlərini, sosial təcrübələrin toplanması və ötürülməsi yollarını, Azərbaycan Respublikası Silahlı Qüvvələri hərbi qulluqçu-







rə və konfrans zallarının, linqvistik və vizual sistemlərin olması hərbi təhsildə daha yüksək mərtəbənin hədəflənməsindən xəbər verir. Bu səbəbdəndir ki, artıq respublika səviyyəli konfrans və fənn olimpiadalarında AAHM kursantlarının uğur qazanması bir sistem halını almışdır. Təkcə keçən il kursantlar respublikanın 30 ali təhsil müəssisəsi tərəfindən mükafata layiq görülmüş, 19 ali təhsil müəssisəsi arasında AAHM kursant elmi cəmiyyəti yüksək yerlər tutmuşdur. Onu da deyək ki, hər il keçirilmiş kursant hərbi elmi cəmiyyətinin konfransları uğurlu keçmişdir. Keçən il 4 istiqamət üzrə 60-dan yuxarı mövzu müzakirəyə çıxarılmış, nəticələrə varılmış, bilik mübadiləsi aparılmışdır. Məktəbin idman nailiyyətlərini də bura əlavə etsək, aydın olur ki, burada kompleks, hərtərəfli təhsil və tədrisdən söhbət gedir. Bizsə deyirik ki, hər zaman, çoxlu sayda Azərbaycan Ali Hərbi Məktəbindən yeniliklər, uğurlar gözləməyə hazır olun.

**Mayor**
**Zakir HÜSEYNOV,**
**«Hərbi Bilik»**

# HƏRBİ TƏHSİLƏ QAYĞI



Daim inkişaf edən hərbi təhsilin müasir dünya standartları səviyyəsində inkişafı bu sahə ilə bağlı yeniliklərdə təzahür edir. Bu yeniliklərdən biri də kadr hazırlığının və hərbi təhsilin inkişafının davamı kimi təhsildə ixtisaslaşmanın və ixtisasartırmanın aparılmasıdır. Əlbəttə, təhsilin hər səviyyəsində ümumi anlayışlar üzrə qazanılan biliklərin təkmilləşdirilərək ixtisaslaşmaya yönəldilməsi, hərbin ayrı-ayrı sahələri üzrə elmi araşdırmalar aparıb konkret ixtisasa yiyələnmə, şəxsi heyətin idarə edilməsi kimi yeni hərbi sahələrin elmi stimullaşmasının həyata keçirilməsi təqdirəlayiq haldır. Hamımızın bildiyi kimi müəllim təhsilin əsas hərəkətverici qüvvəsidir. Müasir pedaqogikanın, tədrisin metodikasının hərbi təhsil sahəsində çalışan müəllim-professor heyətinə kompleks proqramlar daxilində çatdırılmasını təmin etmək aidiyyatı qurumların həmişə diqqət mərkəzindədir. Azərbaycan Respublikası Təhsil Nazirliyi, ayrı-ayrı qoşun növlərinin tədris bölmələri, ölkəmizin ali təhsil ocaqları ilə Müdafiə Nazirliyinin hərbi təhsil qurumları sıx əməkdaşlıq edir. Yuxarıda deyilənlərin təsdiqi kimi Azərbaycan Ali Hərbi Məktəbində 2004-cü ildən yaradılmış müəllimlərin ixtisasartırma kursunu göstərə bilərik. Kurs müəllimlərin qabaqcıl təhsil praktikasından faydalanması, metodoloji, təcrübi biliklərinin inkişaf etdirilməsi, proqram, dərslik və metodik ədəbiyyatdan istifadə qaydalarına yeni yanaşmanın öyrədilməsi yolunda xeyli iş görmüşdür. İndiyə qədər 13 buraxılışı, 350 nəfərə yaxın dinləyicisi olmuş kursun iştirakçıları nın psixologiyaya, pedaqogikaya, informatikaya, politologiyaya, beynəlxalq münasibətlərə, Azərbaycan tarixinin təhlilinə və başqa elm sahələrinə dair referatları işıq üzü görmüş, müəllimlər və təhsilə rəhbərlik edən şəxslər tərəfindən bu elmi araşdırmalar yüksək qiymətləndirilmişdir.

Müxtəlif kateqoriyalı zabit-müəllimlər də kursu bitirdikdən sonra hərbi təhsilə öz töhfələrini verməmiş deyillər. Məktəbdə hərbi sahədə əldə edilmiş bilik və bacarıqların artırılması məqsədilə xarici ölkələrin qabaqcıl ali hərbi məktəblərinin təcrübəsi öyrənilir və tədrisdə tətbiq edilir.

Kursda mütəmadi olaraq təhsil üzrə ekspertlərlə işçi görüşlər təşkil edilir, ali dərəcəli elmi əməkdaşlar, dinləyicilər qarşısında maraqlı mühazirələrlə çıxış edirlər. Bu kurslar hərb elminin inkişafına, hərbi-elmi potensialın artmasına, yeni elmi mövzuların işlənməsi əsasında elmi nailiyyətlər əldə olunmasına böyük töhfələr verəcəkdir. Hər dəfə müəllimlər təkmilləşdikcə, tədqiq edilən hərbi-elmi mövzular çoxaldıqca yeni ənənələr formalaşacaq, bu da hərb elmini müasir standartlar səviyyəsinə gətirib çıxaracaqdır. Mükəmməlləşmə rolunu yerinə yetirə biləcək belə bir kursun yaradılması, onun qarşılıqlı əlaqələrlə inkişaf etdirilməsi və Müdafiə Nazirliyinin rəhbərliyi tərəfindən bu işin düzgün istiqamətləndirilməsi bizdə hərbi təhsilin gələcəyinə inam hissini artırır.

**«Hərbi Bilik»**

# KURSANTLARIN ELMİ UĞURLARI



### GƏLƏCƏYİN HƏRBİ ALİMLƏRİNİN HAZIRLIQ TƏMƏL DAŞLARI BURADA QOYULUR

Azərbaycanın hərbi təhsil sistemində qazanılan uğurlar artıq göz qabağındadır. Sabahın zabiti olacaq gənclərimizin yüksək elmi və intellektual səviyyəsi belə düşünməyə əsas verir ki, artıq müasir cəmiyyətimizdə hərbi peşəyə maraq güclənib. Təkcə bir faktı misal çəkmək kifayət edər ki, ötən il ölkəmizin ali hərbi təhsil müəssisələrinə qəbul edilmiş gənclər arasında yüksək bal toplayanlar az olmayıb. Belə uğurlarımızın sayı isə ildən-ilə artmaqdadır.

Bu günlərdə ulu öndərimizin adını daşıyan Azərbaycan Ali Hərbi Məktəbində elmi işlərə cavabdeh zabitlə – polkovnik-leytenant Arzu İsmayılovla söhbətimizdə də hərbi təhsil ocağının ötən illərdə əldə etdiyi elmi nailiyyətlərə toxunduq. Arzu müəllim bildirdi ki, istər gənclərimizdə zabit peşəsinə marağın artması, istərsə də hərbi təhsil sisteminin müasir tələblər səviyyəsində qurulması və aparılan səmərəli hərbi-elmi islahatlar öz layiqli bəhrəsini verməkdədir.

– Əlaçı kursantlarımız nəinki doğma təhsil ocağında keçirilən, həmçinin respublika səviyyəli elmi tədbirlərdə fəal iştirak edirlər, – deyə müsahibim söhbətinə davam etdi. – Onlarla kursantımız ölkəmizdə müxtəlif vaxtlarda keçirilmiş fənn olimpiadalarında uğurlu nəticələr qazanaraq hərbi təhsil müəssisəsinə başucalığı gətirmişdir. Fərəhlə qeyd etmək istərdim ki, 2011-ci ilin fənn olimpiadaları qaliblərinin mükafatlandırma mərasimində çıxış edən Azərbaycan Respublikasının Təhsil naziri kursantlarımızı yüksək elmi nailiyyətlərinə görə təbrik etmiş və bu elmi uğurların ölkənin digər ali təhsil müəssisələrinə örnək olmasını vurğulamışdı. Həmin mərasimdə diplom və qiymətli hədiyyələr təqdim etdilər, qaliblər sırasında fizika fənni üzrə respublika olimpiadasının qalibi kursant Mirkamran Səlimli də olmuşdu.

Yeri gəlmişkən, bir faktı da diqqətə çatdırım ki, Azərbaycanın dövlət müstəqilliyinin 20-ci ildönümünə həsr edilmiş tələbələrin "Müstəqilliyimiz əbədidir, daimidir, dönməzdir" adlı ümumrespublika elmi-praktik konfransında da bir neçə kursantımız maraqlı məruzələrlə çıxış etmişdi. Əlaçı kursant Fazil Gözəlov isə "Ən yaxşı məruzəçi" diplomu ilə təltif edilmişdi. Belə elmi nailiyyətlərimiz ildən-ilə artmaqdadır





və hesab edirəm ki, son illər dövlətimizin rəhbərliyi səviyyəsində hərbi təhsilin inkişaf etdirilməsinə göstərilən diqqət və qayğı yeni uğurlarımız üçün zəmin yaradacaqdır. Bildiyimiz kimi kursantların hərbi elmi savadının mükəmməlləşməsində kafedralar böyük rol oynayır. Məsələn belə kafedralardan biri kimi taktika kafedrasını qeyd etmək istərdim. Tədris prosesində aparıcı bölmə olan bu kafedra kimi ad çıxarmışdır. Bu kafedrada Azərbaycan Respublikasının Silahlı Qüvvələrinin bütün ixtisaslı zabit kadrlarının yetişirilməsi prosesinin mərkəzi sütunudur. Məktəbdə tədris edilən bütün hərbi və ixtisas fənləri öz fəaliyyətlərini taktika kafedrası ilə uzlaşdırır.

Bu kafedranın zabit-müəllim heyəti qoşun növlərində xidmət keçərək hərb peşəsinə dərindən yiyələnmiş, Əfqanıstanda, Qarabağda gedən müharibələrdə döyüş təcrübəsi toplamış, hərbi xidmətin məhrumiyyət və çətinliklərini yaşayaraq bərkimiş, Azərbaycan Ordusunun quruculuğunda birbaşa iştirak etmiş zəngin təcrübəli, NATO təlimlərində və hərbi təhsil müəssisələrində hərbi-pedaqoji bilik və bacarıqlar qazanmış peşəkarlardır.

Taktika kafedrası hərbi məktəbin təyinatında aparıcılığı ilə seçilməsi ilə yanaşı, həm də bir tədqiqat ocağıdır. Burada tarixdə baş vermiş müharibələr, onların silah və taktikanın təkamülünə təsir etmiş ünsür və hadisələri, Birinci və İkinci Dünya müharibələri, lokal müharibələr, müasir zamanda gedən müharibələr, konfliktlər və hərbi əməliyyatlar öyrənilir. Siahlı mübarizədə tətbiq edilən qoşun növlərinin taktikası, hərbi fəndlər, silah və texnikalar, yeni hərbi texnoloji nailiyyətlər dərindən tədqiq edilir və gələcək müharibələrin gedişatına necə təsir edəcəyi analiz edilir. Bu geniş elmi tədqiqat fəaliyyətinin məhsulu elmi, metodiki, tədris mataerialları olaraq hazırlanır, çap edilir, tədris filmləri və elektron tədris vasitələri yaradılır.

Kafedranın zəngin hərbi-elmi potensialı gələcək zabitlərə pedaqoji ustalıqla, ən müasir və qabaqcıl təlim-tədris metodikaları tətbiq etməklə tədris edilir.

Kursantlarda elmi təfəkkür, analitik düşünmə, məntiqi dəyərləndirmə formalaşdırmaq və elmi fəaliyyətə cəlb etmək məqsədi ilə hərbi-elmi



konfranslar keçirilir, təcrübələr aparılır, nəzəriyyələr hazırlanır.

Kafedra komandirlərə kəskin dəyişən relyefli çətin ərazilərdə, geniş coğrafiyada sürətli və gərgin cərəyan edən döyüşlərdə bölmələrin yerdəyişməsi, döyüşə hazırlanması, döyüş sənədlərinin tərtib edilməsi, döyüşün aparılması və idarə edilməsi, kütləvi qırğın silahlarının mühafizəsi, maskalanması, kəşfiyyatın aparılması üzrə lazım olan bütün bilik və bacarıqları öyrədir.



Dərslərdə qazanılmış nəzəri biliklər seminarlar, qrup çalışmaları, praktiki məşqlər, təlimlər və çöl çıxışlarında dərindən qavranılır.

Belə elmi konfransların keçirilməsində əsas məqsəd kursantların elmi-tədqiqat işlərinə maraq hissini artırmaq və hərbi təhsil ocaqlarında elmi nailiyyətlərin qazanılmasında onların rolunu gücləndirməkdir. Şübhəsiz, belə tədbirlərin ardıcıl keçirilməsi hərbi tədrisin keyfiyyətinin yüksəldilməsinə və müasir hərbi təhsil bazasının formalaşmasına da güclü təkan verəcəkdir.

**Mayor**
**İsmayıl ABDULLAYEV,**
**«Hərbi Bilik»**

# ONLAR NÜMUNƏDİRLƏR



**Silah və atış kafedrasının rəisi polkovnik Ələmdar Süleymanov**

Süleymanov Ələmdar Mikayıl oğlu, 11 noyabr 1960-cı ildə Azərbaycan Respublikası, Bakı şəhərində anadan olub. 1975-ci ildə C.Naxçıvanski adına xüsusiləşdirilmiş orta məktəbinə qəbul olub və 1978-ci ildə həmin məktəbi bitirib. Sonra Azərbaycan SSR Ali Soveti adına Bakı Ali Ümumqoşun Komandirlər Məktəbinə daxil olmuş və1982-ci ildə həmin məktəbi bitirmişdir. 1982-1984-cü illərdə Əfqanıstan Respublikasında hərbi xidmətdə olub və orada gedən döyüşlərdə iştirak edib. 1992-ci ildə Azərbaycanın Milli Ordusunda 777 saylı hərbi hissəyə bölük komandiri vəzifəsinə təyin olunub və 1995-ci ilədək tabor komandiri və briqada komandirinin müavini vəzifəsinədək qulluq etmişdir. 2004-cü ildə Heydər Əliyev adına AAHM-in Taktika kafedrasında bu günə kimi Silah və Atış kafedrasında Kafedra rəisi vəzifəsində qulluq edir. 1984-cü ildə «Qırmızı Ulduz» ordeni, 1995-ci ildə isə «Azərbaycan Bayrağı» ordeni ilə təltif olunmuşdur.



**Elektronika kafedrası rəisinin müavini polkovnik-leytenant İlqar Süleymanov**

Süleymanov İlqar İnqilab oğlu elektronika kafedrası rəisinin müavinidir. 1990-cı ildə Kiyev Ali Hərbi Radiotexniki Mühəndislər Məktəbini bitirmişdir. Silahlı Qüvvələrin müxtəlif qoşun növlərində istifadədə olan bütün silahların, zirehli texnikalarda olan elektron tuşlama cihazlarının, rabitə vasitələri və informasiya sistemlərinin elektronika ilə bağlılığını nəzərə alsaq onda kafedranın üzərinə necə böyük bir vəzifə düşdüyünü söyləyə bilərik. Kafedrada dərslərin keyfiyyətli keçilməsində bütün müəllimlərin yetərincə əməyi var, ancaq işin təşkili məhz kafedra rəisinin, onun müavininin üzərinə düşür. Bakalavr proqramlarına əsasən "Elektronika" kafedrası tərəfindən "Mexanika mühəndisliyi" ixtisası üzrə bütün taqımları əhatə edən 1 fənn, "Avtomatlaşdırılmış sistemlərin və hesablama texnikasının proqram təminatı" ixtisası üzrə 1 fənn və "Elektronika- telekommunikasiya və radiotexnika mühəndisliyi" ixtisası üzrə isə təkcə ixtisas taqımları üçün 21 fənn tədris edilir.

# KURSANTLAR DEYİR Kİ...

*Azadlıq verilmir, alınır. Ötən əsrdə azadlığımıza qovuşmuşduq. Azərbaycan Demokratik Respublikası rus imperiyasının, bolşevizmin qurbanı oldu. 1988-ci ildən başlayan milli-azadlıq hərəkatı imperiyanın sütunlarını laxlatdı. Sovetlər İttifaqı çökdü. Azərbaycanımız yenidən müstəqil oldu!... Bir daha təsdiq olundu ki, «zülmün topu, gülləsi varsa, haqqın da yenilməz qolu vardır»... Azərbaycan tarixin cığırdaşı olacaq!..*



***Emin Nəbiyev:*** Yeniyetməydim. Qəlbimi özümün də baş aça bilmədiyim qəribə, həm də şirin duyğular bürümüşdü. Azərbaycan televiziyasında hərbi verilişə baxırdım. Reklam fasiləsində Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinə qəbulla bağlı göstərilən süjet diqqətimi çəkdi.

Valideynlərim istəyimə etiraz etmədilər. Sənədlərimi C. Naxçıvanski adına hərbi liseyə verdim. Oxudum, oranı müvəffəqiyyətlə bitirdim. İndi arzuladığım ali hərbi məktəbin kursantıyam. Fəxr edirəm ki, müstəqil respublikamızın nüfuzlu ali hərbi məktəbində təhsil alıram. Bu müstəqilliyi biz qorumalıyıq.

***Ülvi Xələfli:*** Müsabiqədən keçə bilmədim. Təbii ki, bu, düşüncələrimi tar-mar etmişdi. Təsadüfən qonşuluqda yaşayan gənc bir oğlanla tanış oldum. Öyrəndim ki, o, Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin kursantıdır. Üçüncü kursada oxuyur. Bildirdi ki, bu il hərbi məktəbə əlavə qəbul elan edilib. Sənədlərimi verdim. Qəbul oldum. Hazırda böyük həvəslə oxuyuram. Həm də fəxrlə, qürrə ilə seçdiyim sənətin mütəxəssisi olmaq üçün çalışıram. Oxuyub öyrənməyi ona görə özümə borc bilirəm ki, zabit şərəfini uca tutmağı bacarım. Ona ləkə gətirən ən xırda nüansa belə yer qalmasın. Yoldaşlığa, dostluğa bizdən öncə də, sonra da körpü salanlara eşq olsun. Bu məktəb qardaşlıq məktəbidir. Azərbaycan zabiti öz şərəfinə tərəddüd etmədən and içə bilməlidir. Bu təmizliyi, ülviliyi qorumalıdır.

# KURSLAR VƏ DƏRNƏKLƏR MÜHÜM AMİLDİR



**Kompyuter və məlumatların işlənməsi bölməsinin rəisi polkovnik-leytenant Ramazan Muradov**

Bu və ya digər dərnəklər, kurslar məktəbin hər bir kursantının dünya duyumuna, formalaşmasına təsirsiz ötüşmür. Kurslar dərslərin əhatəli şəkildə öyrənilməsinə, iştirakçıların elmi biliklərinin artmasına, nəticədə isə gələcəyin zabitlərinin ümumi bilik səviyyəsinin yüksəlməsinə təsir göstərən amildir. Modernləşdirilmiş siniflərdə elektronikadan, mexanikadan və s. bəhs edən geniş laboratoriyaların yaradılması ilə bərabər kompyuter texnologiyaları ilə bağlı savadını artırmaq istəyən kursantların səyləri də nəzərə alınmışdır. Dərnəklər də ora cəlb olunanın qabiliyyətinin aşkarlanmasında, inkişaf etdirilməsində, təkmilləşdirilməsində müstəsna rol oynayır. Məktəbdə təşkil olunan dil kursları, kompyuter öyrənmə qrupları müasirlik baxımından formalaşmada gənclərə yaxından kömək edir. Məktəbdə kompyuterin aparat təminatını və proqram təminatını dərindən bilən mütəxəssislərin olması bu işi daha da irəli aparır. Onlardan biri də polkovnik-leytenant Muradovdur.

Polkovnik-leytenant Ramazan Muradov 5 yanvar 1971-ci ildə Ordubad rayonunun Üstüpü kəndində anadan olub. 1985-1988-ci illərdə C.Naxçıvanski adına Hərbi Liseyi, 1988-1993-cü illərdə Leninqrad Ali Hərbi Rabitə Mühəndisliyi məktəbini bitirib. Ordumuzda xidmətini Müdafiə Nazirliyinin avtomatlaşdırılmış idarəetmə mərkəzində növbə mühəndisi vəzifəsilə başlayan zabit bir neçə dəfə qardaş Türkiyədə ixtisasartırma kurslarının dinləyicisi olmuşdur. 1997-ci ildə ali hərbi məktəbin yeni təhsil standartlarına keçməsi ilə əlaqədar yeni dərs kitablarının, təlimnamələrin, plan-proqramların hazırlanması ilə əlaqədar qardaş ölkədə təcrübə keçən qrupun tərkibində fəaliyyət göstərmişdir. Hərbi məktəbdə kompyuter texnikasının təhsildə metodoloji tətbiqinin yaradıcısıdır. Məlumat bazasının yaradılması, kursantların məlumatlarının işlənməsi, proqram elementlərinin vaxtında yenilənməsi onun bölməsinin öhdəsinə düşür. Avtomatlaşdırılmış iş yerlərinin proqram təminatı və serverlərin tətbiqi, xüsusi proqram təminatı, informasiyanın toplanması və emalı, avtomatik idarə edilməsi və çevrilməsi üzrə müxtəlif çalışmalar kollektiv tərəfindən uğurla həyata keçirilir. Müsahibimiz kursantların kompyuteri öyrənməyə xeyli maraq göstərdiyini qeyd etdi. Onların kurslara həvəslə gəldiyini, asudə vaxtlarını çağdaş informasiya texnologiyalarını öyrənməyə sərf etdiyini bildirdi. Məktəbdə belə kursların daim fəaliyyət göstərdiyini əlavə etdi.

## Öz gələcəyinə sayğı

Kursantlar arasında rəngkarlığa, incəsənətə, ədəbiyyata meyli olanlar şübhəsiz ki, var. Məktəbdə hər tədris ilinin əvvəlində kursantların meyilləri, maraq dünyası ilə bağlı müxtəlif sorğular aparılır. Dərnəkdə kursantlar dərnək rəhbərinin başçılığı altında məşğul olur, asudə vaxtının səmərəli keçirilməsini təmin edir. Dərnəklərdə kursantlar rəngkarlığın, incəsənətin, necə deyərlər bədii sənətin sirlərinə yiyələnməklə duyğularını incələşdirir, erudisiyasını artırır, gələcəkdə cəmiyyətdə maraq doğuracaq mövqeyini indidən təmin edir. Bunlar kursantlara məntiqlə, analogiyalar aparmaqla xatırladılır. Göründüyü kimi, kurslar intellektual inkişaf etmənin, dərnəklər mənəvi tərbiyə prosesinin tərkib hissəsidir. Burada isə bu məqama ciddi sayğı göstərilir.

**«Hərbi Bilik»**

# MÜƏLLİM FƏALLIĞI – TƏDRİSİN KEYFİYYƏTİ



**İdarəetmə kafedrasının rəisi polkovnik Zülfəli Məmmədov**



**Professor, fizika-riyaziyyat elmləri doktoru Azad Bayramov**

İdarəetmə kafedrasının rəisi, Qarabağ müharibəsi veteranı polkovnik Zülfəli Məmmədov 1988-ci ildə Leninqrad Ali Hərbi Komandirlər məktəbini, 2007-ci ildə isə Azərbaycan Respublikasının Silahlı Qüvvələrinin Hərbi Akademiyasını bitirmişdir. 1993-1994-cü illərdə torpaqlarımızı bütövlüyü uğrunda gedən döyüşlərdə iştirak etmişdir. “Hərbi xidmətdə fərqlənməyə görə” medalı ilə təltif olunmuşdur.

Kafedranın professoru, fizika-riyaziyyat elmləri doktoru Azad Bayramov 1982-ci ildə Azərbaycan Dövlət Komsomol mükafatına, 1994-cü ildə Beynəlxalq Soros Mükafatına, “Elmdə Usta Fəxri adı”na layiq görülmüşdür. Bundan əlavə 2009-cu ildə İngiltərənin Kembric Universitetinin Elmi Biblioqrafik Mərkəzinin medalı ilə təltif olunmuşdur. 2009-cu ildə ABŞ-ın Elektrik və Elektronika Mühəndis İnstitutunun və Rusiyanın EA-nın Nanotexnologiya Cəmiyyətinin üzvü seçilmişdir.

# HƏRBİ ƏMƏKDAŞLIQ



Bildiyimiz kimi Azərbaycanın beynəlxalq arenada mövqeyi gün-gündən möhkəmlənir. Ayrı-ayrı dövlətlər ölkəmizlə bütün sahələrdə sıx əməkdaşlığa can atır. Artıq Azərbaycan dünyanın nüfuzlu təşkilatlarının bərabərhüquqlu üzvü kimi çıxış edir. Beynəlxalq hərbi əməkdaşlıq sahəsində də mühüm işlər görülmüşdür və görülməkdə davam edir. Azərbaycan Ali Hərbi Məktəbində NATO kafedrasının yaranmasından sonra NATO-dan müxtəlif səviyyəli nümayəndə heyətləri ölkəmizdə olarkən məktəbi daha cox ziyarət etmişlər. On il ərzində müxtəlif vaxtlarda məktəbi İordaniya Haşimlər Krallığının nümayəndə heyəti, Qazaxstan Respublikası Müdafiə Nazirliyinin nümayəndəsi, İndoneziya Respublikasının Müdafiə Nazirliyinin nümayəndə heyəti, Türkiyə Respublikası Silahlı Qüvvələrinin Hərbi Akademiyasının dinləyiciləri, Ukrayna Milli Müdafiə Universitetinin nümayəndə heyəti, Azərbaycan Respublikasına akkreditə olunmuş xarici dövlətlərin hərbi ataşeləri, Çin Xalq Azadlıq Ordusunun nümayəndə heyəti, Tacikistan Respublikası Silahlı Qüvvələrinin nümayəndə heyəti, Türkiyə Respublikasının Hərbi Dəniz Qüvvələrinin tədris müəssisələrinin heyəti və s. ziyarət etmişlər.

*Qeyd etmək istərdik ki, AAHM-də təşviqat işi də yüksək səviyyədədir. Burada istedadlı qələm sahibi Rəşid Faxralının redaktorluğu ilə "And içirəm" kiçik tirajlı qəzeti, elmi nəşr olan "Elmi əsərlər məcmuəsi" cap olunur. Məktəbin beynəlxalq hərbi əməkdaşlığını diqqətinizə bu üsulla, yəni məktəbin qəzetində getmiş məqaləni verməklə çatdırmaqda məqsədimiz məktəbdə hər iki sahəyə önəm verildiyini önə çəkmək olmuşdur.*

**"MƏKTƏBİMİZDƏ "NATO GÜNÜ"**

Azərbaycan Respublikasının Silahlı Qüvvələri ilə NATO arasında ikitərəfli əlaqələr daha əməli xarakter almaqdadır. Son illərdə NATO-nun xətti ilə keçirilən tədbirlərdə Silahlı Qüvvələrimizin müvafiq kontingenti də iştirak edir.





Bu günlərdə Bakıda "Azərbaycan Respublikasının Silahlı Qüvvələrində NATO günləri" keçirildi. Bu, sıradan bir tədbir deyildi. Cənubi Qafqazda ən güclü ordu ilə yaxından tanış olan ordu ilə tanışlığa yönəldilmiş bu tədbir böyük beynəlxalq əhəmiyyət kəsb edirdi; təbii ki, NATO kimi böyük nüfuza malik olan hərbi təşkilat döyüş qabiliyyətinə, potensialına etibar etmədiyi Silahlı Qüvvələrlə əməkdaşlığa maraq göstərməz. Paytaxtımızda keçirilən bu nüfuzlu tədbirə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbi ilə yaxından tamşlıq, kursantlarla üzvi təmas, brifinqlər keçirilməsi də daxil idi. Məktəbin rəisi general-mayor Heydər Piriyev qonaqları - NATO Müttəfiq Transformasiya Komandanlığının ekspert qrupunu (qrupun rəhbəri polkovnik Yusif Bəyazit, üzvləri-ikinci dərəcəli kapitan Ralf Qrabov, polkovnik-leytenant Ramsey Jeffey Skot, polkovnik-leytenat Müqabil Hüseynov, mayor Gündüz Əbdülov) qarşıladıqdan sonra Məktəbin həyatində, ümummilli liderimiz Heydər Əliyevin abidəsi önündə xatirə şəkli çəkildi. Bu, bir anın tarixi olsa da Azərbaycan Silahlı Qüvvələrinin timsalında Azərbaycan Ali Hərbi Məktəbinə ünvanlanan tarixdir. Rəsmi qonaqlar bu bu hərbi Məktəbi zaman-zaman xatırlayacaq... NATO Müttəfiq Transformasiya Komandanlığının ekspert qrupu üçün brifinq keçirildi.

"NATO barədə yeni məlumatlar", "NATO-nun başçılıq etdiyi əməliyyatlar", "Azərbaycan-NATO əməkdaşlığı", "NATO-da Uzlaşdırma və Standartlaşdırma", "Əlaqəli Qüvvələrin Təşəbbüsü" kimi brifinqlər iştirakçıların böyük marağına səbəb oldu. Qrup tədris korpusu ilə yaxından tanış oldu. 1saylı ingilis dili kursant qrupu ilə masa arxasında "NATO-nun Tərəfdaşlığı", 2 saylı ingilis dili kursant qrupu ilə masa arxasında "Əlaqəli Qüvvələrin Təşəbbüsü", "NATO-da Uzlaşdırma və Standartlaşdırma", 3 saylı ingilis dili kursant qrupu ilə masa arxasında "NATO Əməliyyatları"mövzusunda müzakirələr keçirildi. NATO rəhbərliyini, Silahlı Qüvvələrimizin timsalında məktəbin fəaliyyətinə böyük maraq göstərməsindən, təbii ki, kursantlarımız da böyük qürur duyur. NATO-nun rəsmilərinin məktəbimizdə tədrisin təşkili ilə maraqlanması, kursantlarla ünsiyyətdə olması, brifinqlərin tematikası, informasi-





ya yükü kursantların erudisiyasının genişlənməsində, hərbi yönümlü məlumatlarının zənginləşməsində, NATO-nun başçılıq etdiyi əməliyyatlarla bağlı tam, müfəssəl məlumatlar əldə etməsində, dünyagörüşünə təsir göstərməsində əhəmiyyətli olmaqla bərabər, onların seçdiyi peşəyə sevgisinin formalaşmasında vasitə ola bilər, şübhəsiz. Bu, güman deyil, həqiqətdir.



Həqiqət işığında hər şey aydın görünür; hadisə də, fəaliyyət də...

NATO kimi böyük nüfuza malik bir hərbi qurumun rəsmiləri ilə auditoriyada peşə ünsiyyəti kursantların yaddaşında illərlə qalacaq. Məktəbimiz qonaqlarda Silahlı Qüvvələrimizin döyüş qabiliyyətinin gələcəyi haqqında bazis-rəy yaradacağından NATO-nun yüksək rütbəli rəsmilərinin məktəbimizə gəlişi kursantların məsuliyyətini artıracaq. Məsuliyyət vəzifə borcunun tam dərki deməkdir. Brifinqlərin (aydınlıq naminə, "NATO haqqında yeni məlumatlar", "Azərbaycan – NATO əməkdaşlığı") məzmun etibarilə çağdaş informasiya xaosunda real mənzərə yaratma etibarilə olduqca vacib olacağı inkaredilməz həqiqətdir.

Bu qəbil tədbirlərin kursantlarda peşə sevgisini daha da artıracağına bizim də inamımız böyükdür.

Biz də inanırıq, kursantlar da...

İnamımız hərbi and gücündədir..."

# ORDU İDMANINI ZİRVƏLƏRƏ QALDIRAQ



Respublikamızda bədən tərbiyəsi və idmanın inkişafı yönündə görülmüş işlərə nəzər yetirəndə istər kütləvilik və gənclərin fiziki hazırlığı, istər ölkəmizin beynəlxalq arenada layiqincə təmsil olunması, istərsə də nüfuzlu beynəlxalq yarışların məkanına çevrilməsinə görə, Azərbaycanın əsl idman ölkəsinə çevirildiyinin şahidi oluruq. Azərbaycanda idmanın əksər növlərinin inkişaf etdiyini, müxtəlif növlər üzrə həm olimpiya, həm də dünya çempionlarımız olduğunu qeyd etməklə deyə bilərik ki, ölkəmizdə idmanın kütləviliyi dəstəklənir. Ölkədə istər maddi-texniki bazanın inkişaf etdirilməsi, istərsə də gənclərin bədən tərbiyəsi və id - mana cəlb edilməsi üzrə görülmüş işlər bu gün oz bəhrəsini verməkdədir. Ölkəmizdə idmanın inkişafının davamı kimi Silahlı Qüvvələrin İdman Birinciliklərini də qeyd etmək yerinə düşər.

Heydər Əliyev adına Azərbaycan Ali Məktəbində keçirilən birinciliklər şərait və təşkilatçılıq baxımından təqdirəlayiq olsa da, məktəbin idmanda göstərdiyi nailiyyətlər adamda fərəh doğurur. Yarışda qalib gəlmək yalnız idmançıların fiziki imkanlarından deyil, eyni zamanda onların hazırlaşdırılmasından, məşq etdirilməsindən asılıdır.

Bunun qarşılığı olaraq onu deyə bilərik ki, məktəb Silahlı Qüvvələrdə yeganə məkandır ki, həm də idmançı yetişdirir. Bura daxil olan idmansevər kursant məktəbdən məzun olduqda idmanın hər hansı növü üzrə dərəcə əldə etmiş olur.

– "Biz Azərbaycan idmanının şərəfini ləyaqətlə qorumağa, ölkənin şan-şöhrətini yüksəltməyə söz vermişdik. Biz bunu etdik. İndi idmançılarımız dünyanın ən mötəbər yarışlarında böyük qələbələr qazanırlar. Dünyanın müxtəlif ölkələrinin möhtəşəm idman saraylarında Azərbaycan himni səsləndirilir, Azərbaycan bayrağı qaldırılır"- deyən Ali Baş Komandanın orduya göstərdiyi etimadı Silahlı Qüvvələrimiz idman sahəsində də sarsılmağa qoymurlar. Bu cərgədə ən öndə gedənlərdən biri Azərbaycan Ali Hərbi Məktəbidir. Yarışlar təsdiq edir ki, daha genişmiqyaslı yarışlarda fərqlənməyə, müka-





elan edilmişdi. İdmanın kütləviliyi hər yerdə təmin edilirdi. Silahlı Qüvvələrimizdə də. Belə ki, idmanın müxtəlif növləri üzrə yarışlar keçirilirdi.

Heydər Əliyev adına Azərbaycan Ali Məktəbində keçirilən güləş üzrə Silahlı Qüvvələrin birinciliyində olduğu kimi. Bu, Azərbaycan Güləş Federasiyasının və Müdafiə Nazirliyinin Məktədə göstərdiyi eti-



fata layiq yer tutmağa qadir olan məktəb idmançıları idmanın bir çox növləri üzrə Birinciliklərdə, "böyük şöhrəti" qorumağa israrlıdırlar. "Şərəf-namusum, dürüstlük-xarakterim, sevgi-insanlığım, vəzifəm-məqsədim – Vətəndir" ideologiyası ilə yetişən gələcəyin zabitləri elmli olmaqla yanaşı döyüşkən və dözümlü olmalıdırlar ki, düşmənə qalib gəlmək mümkün olsun.

Mən deyə bilərəm ki, biz, buna nail ola bildik və gənc idmançılarımız Silahlı Qüvvələr birinciliyində məktəbi ləyaqətlə təmsil etdilər. Bu birinciliklər orduda idmanın inkişafına böyük təkan verir, qərara gəldik ki, oyunları ənənəyə çevirək və artıq neçənci dəfədir ki, bu oyunlar keçirilir. Bu o deməkdir ki, bu ənənə yaşayır və bundan sonra da yaşayacaqdır. Biz idmançılarımıza öz qayğımızı heç vaxt əsirgəməmişik, onlara hər zaman kömək etməyə çalışmışıq və buna nail oluruq. Çünki biz hesab edirik ki, idman ölkəmizin siyasətinin ayrılmaz bir hissəsidir. İdmanla məşğul olan insan həm güclü olur, həm də onda ruh yüksəkliyi olur deyə idman kafedrasının məsul zabiti fəxrlə dedi.

Məktəbdə istər maddi-texniki bazanın inkişaf etdirilməsi, istərsə də kursantların bədən tərbiyəsi və idmana cəlb edilməsi üzrə görülmüş işlər bu gün öz bəhrəsini verməkdədir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamı ilə 2012-ci il olimpiya ili

mad idi, şübhəsiz, Yunan-Roma və sərbəst güləş üzrə keçirilən bu yarışda 14 komandanı təmsil edən 157 güləşçi (73-ü sərbəst, 64-ü Yunan-Roma güləşi) kimin nəyə qadir olduğunun sınağına çıxmışdılar. Məktəb bu yarışda 7 güləşçi ilə təmsil olunmuşdu.

Rafiq Hacıyevi yada saldım, Kamandar Məcidovu, Xəzər İsayevi, Namiq Abdullayevi, Fərid Mansurovu, Şərif Şərifovu, Toğrul Əsgərovu,... xatırladım. Onlar da böyük idmana belə yarışlardan gəiblər axı... Bu yarışda Orxan Paşayevin (66 kq.) güləşi Olimpiya çempionu Toğrul Əsgərovu xatırladırdı: çevikliyi, əzmkarlığı, fiziki və texniki hazırlığı ilə.

Yarışlar təsdiqlədi ki, Silahlı Qüvvələrimizdə daha genişmiqyaslı yarışlarda fərqlənməyə, mükafata layiq yer tutmağa layiq güləşçilər var. Yarışda məktəbin güləşçiləri üç bürünc medal qazanmışdılar.

Bu qabiliyyət, bu yarışlar göstərirdi ki,



ulu öndər Heydər Əliyevin – “Son illərdə Milli Olimpiya Komitəsinin fəaliyyətində yeni bir mərhələ başlanandan sonra Azərbaycanda bədən tərbiyəsi, idman sürətlə inkişaf etməyə başlayıbdır. Biz bunun şahidiyik və xüsusən Azərbaycan idmançılarının 2000-ci ilin Sidney Olimpiya Oyunlarındakı böyük qələbəsindən sonra Azərbaycanda gənclər, idmançılar içərisində, ümumiyyətlə cəmiyyətimizdə böyük bir ruh yüksəkliyi yarandı. Bədən tərbiyəsi təkcə gənclərimizin yox, bütün cəmiyyətin diqqət mərkəzinə çevrildi” – sözlərinin bariz təsdiqidir.

Yarış rəqabət deyil, mübarizədir. Mübarizə qələbə üçündür. Qazanılan qələbə idmançının özünə də, onun xidmət etdiyi bölməyə də şöhrət gətirir. Hər bir bölmənin idman şöhrəti isə ümumən Silahlı Qüvvələrimizin şöhrətidir. “Biz idmanı, bədən tərbiyəsini kütləvi etməliyik. Gənclərin tam əksəriyyətini buna cəlb etməliyik. Bu Azərbaycan vətəndaşının hərtərəfli gələcəyi üçün təməldir. Buna nail olmaq üçün təbiidir ki, lazımi imkanlar da yaratmalıyıq, lazımi şərait də yaratmalıyıq” siyasətini layiqincə davam etdirən Ali Baş Komandana ən böyük dəstək elə ordumuzun rəhbərliyi tərəfindən verilir.

Azərbaycan Ali Hərbi Məktəbində yaradılmış idman kompleksi, yeni futbol meydançası, trenajor zalları daim kursantların ixtiyarındadır. Yüksəkixtisaslı müəllimlər tərəfindən keçirilən idman məşqləri aparılan bədən təlimi fəaliyyətləri kursantların fiziki cəhətdən inkişafına köməklik göstərir. Göründüyü kimi idman kompleksinin müasir standartlara cavab verən şəkildə olmasının nəticələrə əhəmiyyətli təsiri var.

Azərbaycan Ali Hərbi Məktəbi on il ərzində neçə-neçə idman nailiyyətlərinə imza atmışdır. İstər kollektiv oyunlarda, istərsə də şəxsi birinciliklərdə ali təhsil müəssisəsinin komandası dəfələrlə fərqlənib. Komanda hesabında kuboklar əldə edən gənc idmançılar bundan həvəslənərək yeni uğurlara imza atmaqda tərəddüd etmirlər. Əgər istək varsa, qələbə də olacaqdır. Bizim doğma hərbi məktəbin pərvazlanan idmançıları yerlərdə də id-



manın inkişafına dəstək olurlar. Əsgərlərimizin fiziki və döyüş hazırlığının inkişafında əllərindən gələni əsirgəmirlər.

**«Hərbi Bilik»**




# «AZİMUT»

«Hərbi Bilik» jurnalının
aylıq bülleteni

Baş redaktor
Mayor
Zakir HÜSEYNOV

Məsul katib
Mayor
İsmayıl ABDULLAYEV



Redaksiya kollegiyası:
H. PİRİYEV
A. QURBANİ
F. ABBASOV
M. ABİYEV
N. DƏMİROV



Redaksiyanın ünvanı:
370069 Bakı ş.,
«Qızıl Şərq»
hərbi şəhərciyi, 13,
tel: 440-99-71



Lisenziya: № 002559
Yığılmağa verilmişdir:
20.02.2014
Çapa imzalanmışdır:
03.03.2014
Fiziki çap vərəqi: 10
Kagız formatı: 60x84 1/8
İndeksi: 0317
Tirajı: 100
Sifariş: 99

Bülleten Azərbaycan Respublikası
Müdafiə Nazirliyinin Hərbi Nəşriyyatında
ofset üsulu ilə çap edilib.
Lisenziya: № 022042
Verilmə tarixi: 04.06. 1999

Nömrənin məsul növbətçisi:
Mayor
İsmayıl ABDULLAYEV

Korrektor
Nəzrin ƏSƏDZADƏ

İndeks: 0317

İndeks 0317

“HƏRBİ BİLİK” JURNALININ AYLIQ BÜLLETENİ “AZİMUT”

Ünvanımız: “Qızıl Şərq” hərbi şəhərciyi 13, tel: 539-54-83, 440-99-71








